

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET   № 171 (7426) / Cümə axşamı, 19 sentyabr 2019-cu il


# Azərbaycan-Belarus münasibətləri dostluğa, qarşılıqlı anlaşmaya və dəstəyə əsaslanır



Prezident İlham Əliyev Belarus Təhlükəsizlik Şurasının dövlət katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Bax: Səh.2

## Səfərlər və görüşlər münasibətlərimizin inkişafında xüsusi rol oynayır



Bax: səh. 2

## Mehriban Əliyeva: Hər iki dahi şəxsiyyətimizin - Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin xatirəsini dərin ehtiramla yad edirik



Bax: səh. 2

## SOCAR-ın prezidenti Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri ilə görüşüb



Bax: səh. 3

## "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli"



Bax: səh. 4-5

## Xoşbəxt Yusifzadə: "Əsrin müqaviləsi" mənim gözlərim önündə ərsəyə gəlib



Bax: səh. 6-7

## Abadlaşdırılan növbəti həyət



Bax: səh. 3

10 Sumqayıt Təlim-Tədris Mərkəzi yeni tədris ilinə uğurla start verdi

# Azərbaycan-Belarus münasibətləri dostluğa, qarşılıqlı anlaşmaya və dəstəyə əsaslanır

## PREZİDENT İLHAM ƏLİYEV BELARUS TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham ƏLİYEV dedi:

-Xoş gəlmisiniz. Sizi yenidən görməyimə şadam. Siz artıq ilk dəfə deyil ki, bizim ölkəmizə gəlirsiniz. Sizin hər səfəriniz qarşılıqlı maraq doğuran məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Münasibətlərimizin xarakteri və ruhu haqqında danışmağa ehtiyac yoxdur. Biz onları çox yüksək qiymətləndiririk. Onlar dostluğa, qarşılıqlı anlaşmaya, qarşılıqlı dəstəyə əsaslanır. Əminəm ki, sizin bu səfəriniz də münasibətlərimizin gələcək inkişafına töhfə verəcək.

Bizim siyasi qarşılıqlı fəaliyyətimizin səviyyəsi çox yüksəkdir. Demək olar ki, dövlət başçılarının, digər rəsmi şəxslərin müntəzəm səfərləri, ticari-iqtisadi sahədə yaxşı irəliləmələr, birgə layihələr, birgə istehsal, təhlükəsizlik sahəsində, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq mövcuddur. Belə ki, münasibətlərimiz dərin məzmunla zəngindir və nəticəyə yönəlib. Bir də demək istərdim, münasibətlərimizin fərqli xüsusiyyəti ondadır ki, biz qərar qəbul edirik, qərarların həlli yollarını müəyyənləşdirirk və nəticəsini görürük. Düşünürəm ki, bu müsbət dinamika gələcəkdə də saxlanılacaq, münasibətlər uğurla inkişaf etdiriləcək, ölkələrimizə və xalqlarımıza fayda gətirəcək. Sizi bir daha Azərbaycanda salamlayıram.

Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav ZAS dedi:

-Sağ olun, hörmətli cənab Prezident, hörmətli İlham Heydər oğlu. Bugünkü görüşə görə sağ olun. Sizinlə görüşmək, söhbət etmək mənim üçün böyük şərəfdir.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## BAKI ŞƏHƏRİNDƏ ÇOXMƏNZİLLİ BİNALARIN DAM ÖRTÜKLƏRİNİN TƏMİRİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Bakı şəhərində 380 çoxmənzilli binanın dam örtüyünün təmiri məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə 10,0 (on) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 18 sentyabr 2019-cu il.

*Mehriban Əliyeva:*

## Hər iki dahi şəxsiyyətimizin - Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin xatirəsini dərin ehtiramla yad edirik

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Milli Musiqi Günü ilə əlaqədar İnstaqram səhifəsində paylaşım edib.**





AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezidentin paylaşımında deyilir: "Bu gün Milli Musiqi Günüdür. 1885-ci il sentyabrın 18-də Azərbaycan bəstəkarlıq məktəbinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəyli anadan olmuşdur. Onunla eyni ildə və eyni gündə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar Müslüm Maqomayev dünyaya gəlmişdir. Hər iki dahi şəxsiyyətimizin xatirəsini dərin ehtiramla yad edirik".

## ULU ÖNDƏRİN MƏZARINI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT



Azərbaycanda səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas sentyabrın 18-də Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Stanislav Zasa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## ATƏŞKƏS REJİMİ 20 DƏFƏ POZULUB

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Krasnoselsk rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Səfərlər və görüşlər münasibətlərimizin inkişafında xüsusi rol oynayır

## AZƏRBAYCAN PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ BELARUS TƏHLÜKƏSİZLİK ŞURASININ DÖVLƏT KATİBİ İLƏ GÖRÜŞÜB

**Sentyabrın 18-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev ölkəmizdə səfərdə olan Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, müstəqillik illərində Azərbaycan-Belarus əlaqələrinin təməlinin 1994-cü ildə dövlət başçıları Heydər Əliyev və Aleksandr Lukaşenko tərəfindən qoyulduğunu xatırladan Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Belarus Prezidentinin qarşılıqlı səfərlərinin və görüşlərinin ikitərəfli münasibətlərimizin inkişafında xüsusi rol oynadığını vurğuladı.

Söhbət zamanı Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri ilə Stanislav Zas arasında bundan əvvəl beynəlxalq tədbirlərdə keçirilən görüşlər məmnunluqla xatırlandı.

Görüşdə Administrasiya rəhbəri Ramiz Mehdiyev 2020-ci ilin yanvar ayından Stanislav Zasın yeni vəzifənin icrasına başlayacağını qeyd edərək, bu münasibətlə təbriklərini çatdırdı və həmin vəzifədə çalışacağı dövrdə də Azərbaycanla Belarus arasında dostluq əlaqələrinin inkişaf edəcəyinə əminliyini ifadə etdi. Administrasiya rəhbəri Ramiz Mehdiyev Belarus Respublikasının Təhlükəsizlik Şurası ilə bundan sonra da yaxın əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

# SOCAR-ın prezidenti Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri ilə görüşüb








**Sentyabrın 18-də SOCAR-ın prezidenti Rövnəq Abdullayev Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnavanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirmişdir.**

Görüşdə Azərbaycan və SOCAR-ın bölgədə başlıca enerji təchizatçısı olduğu qeyd edilmiş, Gürcüstana qaz tədarükü ilə bağlı məsələlər müzakirə olunmuşdur. Azərbaycan və SOCAR-ın liderliyi ilə həyata keçirilən Cənub Qaz Dəhlizi, “Şahdəniz-2” kimi layihələrin regional və qlobal əhəmiyyəti vurğulanmış, bu layihələrin sona yaxınlaşmasından və uğurlu təcrübəsindən bəhs edilmişdir. Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Turnava SOCAR-ın Gürcüstanda qazpaylama şəbəkəsinin operatoru kimi uğurlu fəaliyyətindən ətraflı söz açmış, əməkdaşlığın perspektivlərindən danışmışdır.

Görüşdə Gürcüstan hökumətinin müəyyən etdiyi bazar şərtləri çərçivəsində SOCAR-ın bu ölkədə dayanıqlı fəaliyyətinin təmin olunması, qoyulan sərmayələrin dəyərinin Azərbaycana qayıtması şərti ilə qarşılıqlı faydalı, optimal və effektli tərəfdaşlıq düsturu və s. məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Qeyd edək ki, SOCAR Gürcüstan bazarında 2006-cı ildən birbaşa fəaliyyət göstərir. Həmin il neftin Qərb bazarlarına nəql edilməsi məqsədilə alınmış Kulevi Neft Terminalı və limanı əməliyyat fəaliyyətinə 2008-ci ildə başlamışdır. İndiyədək terminaldan 23 milyon tondan artıq neft və neft məhsulu ötürülmüşdür. Gürcüstan bazarında Azərbaycanın və üçüncü tərəflərin neft məhsullarının topdan və pərakəndə satışı ilə məşğul olan “SOCAR Georgia Petroleum” MMC 113 yanacaqdoldurma məntəqəsinə, 16 xidmət mərkəzinə və 5 neft terminalına malikdir. Hazırda şirkətdə təxminən 1500 işçi çalışır. “SOCAR Georgia Gas” MMC Gürcüstan regionlarına təbii qazın tədarükü və paylanmasını həyata keçirir və yerli qaz şəbəkəsini idarə edir.



# Abadlaşdırılan növbəti həyət

Sentyabrın 18-də IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş “Bizim həyət” layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Ümumi sahəsi 12000 kvadratmetr olan həyət Xətai rayonu, Lütfi Zadə 10, M.Rüstəmov 21, Sarayevo 19 ünvanlarında 2500 nəfər sakinin yaşadığı beş 9 mərtəbəli və iki 16 mərtəbəli binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti də nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə süni örtüklü mini futbol meydançası, şahmat meydançası, müxtəlif idman qurğuları və uşaqlar üçün oyun meydançası salınıb.

Eyni zamanda, ərazidə velosiped yolu, 10 söhbətgah inşa edilib, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb, həyətdəki xeyir-şər evi əsaslı təmir olunub və bütün avadanlıqlarla təmin edilib.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara yeni dəmir qapılar və plastik pəncərələr quraşdırılıb.









Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq 100 ədəd ağac, gül kolları əkilib və 4500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Xətai rayonunda sakinlərin istifadəsinə verilmiş həyət layihə çərçivəsində abadlaşdırılan otuzuncu həyətdir.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar, paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli"

Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov partiyanın İcra Katibliyində bu mövzuda təşkil olanan "dəyirmi masa"da bildirdi ki, ötən 25 ildə Azərbaycan müstəqilliyini əldə edən gənc dövlətlər arasında bütün dünya birliyi tərəfindən ən uğurlu dövlət kimi qəbul olunub



**Dünən Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli" mövzusunda "dəyirmi masa" keçirildi.**

Milli Məclisin deputatlarının, iqtisadçıların, YAP fəallarının və media nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirdi ki, bu gün Azərbaycanın müasir tarixinin ən önəmli hadisələrindən biri ilə əlaqədar ətraflı fikir mübadiləsi aparmaq imkanımız olacaq: **"Bir neçə gündən sonra tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin imzalanmasının 25-ci ildönümü qeyd ediləcək. 1994-cü il sentyabrın 20-də təkcə Azərbaycanın iqtisadiyyatı və enerji sektoru deyil, bütövlükdə dünyanın enerji siyasəti üçün çox böyük əhəmiyyət kəsb edən saziş ölkəmizdə imzalandı. Eyni zamanda, diqqəti çəkən cəhət bundan ibarətdir ki, həmin layihə "Əsrin müqaviləsi" adını aldı. Bu sazişin imzalanması ulu öndər Heydər Əliyevin böyük dühasının və iradəsinin sayəsində mümkün oldu. Azərbaycan dövlət müstəqilliyini yenicə bərpa etmişdi. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkəmizin qüdrətlənməsi, müstəqil dövlət quruculuğu prosesinin həyata keçirilməsi, sabitliyin və əmin-amanlığın təmin olunması, iqtisadi tənəzzülün aradan qaldırılması istiqamətində böyük fədakarlıq göstərərək biri-birindən mühüm addımlar atdı. Bütövlükdə Ümummilli Liderin xidmətləri sırasında yeni neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi əsas yer tutur. O zaman Azərbaycan iqtisadiyyatına investisiyaların yatırılması ilə bağlı tərəddüdlər var idi. Azərbaycanda sabitlik tam təmin edilməmişdi, ölkə müharibə vəziyyətində idi. Bütün bunlara baxmayaraq, ulu öndər Heydər Əliyev risklər şəraitində Azərbaycanın, ümumilikdə, dünyanın enerji siyasəti üçün əhəmiyyətli olan sazişin imzalanmasına nail oldu. Ən başlıcası isə bu layihənin həyata keçirilməsi üçün xarici şirkətləri ölkəmizə dəvət etdi. Hesab edirəm ki, bu, ulu öndər Heydər Əliyevin dühasının və iradəsinin sayəsində mümkün oldu. "Əsrin müqaviləsi" ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır."**

**"Məmnunluq hissi ilə qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi"nin imzalanmasından öncə də Azərbaycanın malik olduğu təbii resursların hasil edilməsi və dünya bazarlarına çıxarılması ilə bağlı cəhdlər olmuşdur. Lakin onlar müəyyən təzyiqlərin səbəbindən, yaxud digər amillərdən reallaşa bilmədi"** söyləyən Ə.Əhmədov qeyd etdi ki, yalnız ulu öndər Heydər Əliyevin böyük qətiyyəti sayəsində bu sazişin imzalanması gerçəkləşdi: **"Artıq 25 ildir ki, "Əsrin müqaviləsi" Azərbaycana xidmət edir. Bu layihənin ən böyük əhəmiyyəti ölkə iqtisadiyyatına böyük investisiyaların cəlb olunmasını stimullaşdırmasıdır. Bu maliyyə resursları hesabına ölkə iqtisadiyyatının inkişafı təmin edildi. İnsanların rifah halı yaxşılaşdı. Bütövlükdə ölkənin infrastrukturu yeniləşdirildi."**



YAP Sədrinin müavini qeyd etdi ki, əlbəttə, "Əsrin müqaviləsi"nin əhəmiyyəti geosiyasi baxımından da geniş təhlil olunur: **"Azərbaycanın həm regionda, həm dünya birliyində siyasi mövqeyinin möhkəmlənməsi, nüfuzunun artması, beynəlxalq aləmdə yer tutmasında bu sazişin rolu inkaredilməzdir."**

**"Zəngin ehtiyatların olması hələ o ehtiyatlardan istifadə etmək imkanlarının olması demək deyildi"** söyləyən Ə.Əhmədov vurğuladı ki, "Əsrin müqaviləsi"nin imzalanması bu imkanları təmin etdi: **"Dövlətimizin başçısı İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, neft strategiyasının qazandırdığı dividentlər sayəsində Azərbaycan müasirləşdi, yeniləşdi, gücləndi, iqtisadi inkişafı təmin edildi, insanların yaşayış səviyyəsi daha da yüksəldi. Azərbaycanın uğurlu gələcəyi üçün böyük ümidlər verən əsaslar yaradıldı. Ötən 25 ildə Azərbaycanın həyatı bütün sferalarda dəyişdi. Ölkəmiz müstəqilliyini əldə edən gənc dövlətlər arasında bütün dünya birliyi tərəfindən ən uğurlu dövlət kimi qəbul olunur. Zaman keçdikcə bu fakt açıqlanır ki, Azərbaycanın neft ehtiyatları daha çoxdur. Bu da gələcəkdə yeni-yeni layihələrin gündəmə gətiriləcəyinə və uğurlu icrasına əsaslar yaradır. İki il bundan öncə Bakıda "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Sazişin imzalanması "Əsrin müqaviləsi"nin əhəmiyyətini bir daha açıqladı, ölkəmizin qarşısında açılan imkanlara işıq saldı."**

SOCAR-ın I vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə bildirdi ki, "Əsrin müqaviləsi"nin 25 illiyi təkcə neftçilərin deyil, bütün Azərbaycan xalqının bayramıdır. "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadi qüdrətinin artmasına, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə yol açdı.

**"Müqavilənin imzalanması heç də asan başa gəlmədi"** söyləyən X.Yusifzadə qeyd etdi ki, sazişin imzalanması böyük müqavimətlərlə üzləşdi. Ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələr kimi, neft sənayesinin bərpası və inkişafı ilə də məşğul olmağa başladı: **"O vaxt "Azəri", "Çıraq", "Günəşli" yataqları ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi: ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək."**

Akademik vurğuladı ki, həmin illərdə ölkənin sosial-iqtisadi vəziyyəti çox gərginləşmişdi. Neft-qaz sənayesi də dərin böhran içində idi. Xarici neft şirkətləri ilə işbirliyinin qurulması zamanın tələbi idi. Beynəlxalq təcrübə bunun üstünlüklərini geniş şəkildə nümayiş etdirirdi: **"O da məlumdur ki, dənizdə neft hasilatı riskli və böyük sərmayə qoyuluşunu tələb edən işdir. Buna görə də dünyanın hətta ABŞ, Böyük Britaniya, Fransa kimi qüdrətli dövlətləri də bu məsələdə hasilatın pay bölgüsü prinsipi əsasında əlbir işləməyə, beləliklə də riskləri mümkün qədər azaltmağa çalışırlar. Azərbaycan da bu təcrübədən səmərəli şəkildə istifadə etməli idi. Lakin xarici neft şirkətlərinin ölkəmizə sərmayə qoymasına qarşı çıxan qüvvələr də mövcud idi. Bu qüvvələr həm respublikanın özündə, həm də xaricdə fəaliyyət göstərirdilər. Buna görə də ulu öndər Heydər Əliyev neftçi mütəxəssisləri ətrafına toplayıb, onlarla məsləhətləşdi. Xarici neft şirkətlərini ölkəmizə dəvət etmək qərara alındı. Beləliklə də Azərbaycanın ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasına start verildi. Xarici şirkətlərlə danışıqlar bərpa olundu."**



X.Yusifzadə qeyd etdi ki, danışıqlar 1994-cü ilin martında Bakıda başlandı, sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi: **"Danışıqların həlledici mərhələsi Amerikanın Hyuston şəhərində keçirildi. Hyustonda 45 gün ərzində aparılan danışıqlar çox ağır keçdi. Bir məqamı da nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Aparılan danışıqların uğurla başa çatmasında o zaman SOCAR-ın Birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin xüsusi rolu olub. Belə ki, Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirən cənab İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi. Nəhayət, tərəflərin birgə işləmək, Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarından ədalətlə bəhrələnmək istəyi üstün gəldi."**

⇨ Davamı 5-ci səhifədə

# "Əsrin müqaviləsi" - Azərbaycanın yüksəlişinin möhtəşəm təməli"

Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov partiyanın İcra Katibliyində bu mövzuda təşkil olanan "dəyirmi masa"da bildirdi ki, ötən 25 ildə Azərbaycan müstəqilliyini əldə edən gənc dövlətlər arasında bütün dünya birliyi tərəfindən ən uğurlu dövlət kimi qəbul olunub

⇨ Əvvəli 4-cü səhifədə



"Əsrin müqaviləsi"nin Azərbaycan üçün əhəmiyyətindən bəhs edən X.Yusifzadə bildirdi: **"Siyasi cəhətdən müqavilənin əhəmiyyəti ondadır ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha əmin oldular ki, Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç də təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 35 saziş bağlandı. Müqavilənin iqtisadi əhəmiyyəti isə ondadır ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən, 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı."**

X.Yusifzadə qeyd etdi ki, "Əsrin müqaviləsi"nin ən böyük nailiyyətlərindən biri də odur ki, bu müqavilə yalnız "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsi ilə məhdudlaşmadı. Bu böyük layihənin törəmələri meydana gəldi ki, onların da birincisi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri oldu. Əgər "Əsrin müqaviləsi" ümummilli lider Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri onun ikinci şah əsəri oldu.

**"30 il müddətinə imzalanmış "Əsrin müqaviləsi" 2024-cü ildə başa çatacaq. Bəs sonra"** sualı ətrafında fikirlərini açıqlayan akademik bildirdi ki, qarşımızda bir neçə variant var idi: **"Birinci variant BP şirkətinin operatorluq etdiyi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə əməkdaşlığı davam etdirmək idi. İkinci fikir bəlkə başqa xarici şirkətlərlə əməkdaşlığa gedək, onlarla müqavilə bağlayaq, üçüncüsü isə o idi ki, 2024-cü ildən sonra "Azəri", "Çıraq", Günəşli"ni özümüz işlədək. BP şirkəti və onun tərəfdaşları ilə işin təklif etdiyimiz kommersiya şərtləri əsasında davam etdirilməsini üstün tutduq. Aparılan danışıqlar 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş müqavilənin imzalanması ilə nəticələndi. Bu müqavilə "Əsrin müqaviləsi"nin ömrünü 2050-ci ilə qədər uzatdı."**

""Əsrin müqaviləsi"nin 25 illik yubileyində "Şahdəniz"dən danışmaya bilmərik" söyləyən X.Yusifzadə qeyd etdi ki, çünki "Əsrin müqaviləsi" olmasaydı, "Şahdəniz" də olmayacaqdı. "Şahdəniz" ulu öndər Heydər Əliyevin üçüncü şah əsəridir. "Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi, "Şahdəniz" yatağının kəşf edilməsi isə qaz ixrac edən bir ölkə kimi tanıtdırdı.

Bildirildi ki, "Şahhdəniz-2" layihəsi çərçivəsində Azərbaycan qazının Avropaya nəql edilməsi məqsədilə Cənub Qaz Dəhlizinin çəkilməsi müasir qaz epopeyamızın ən parlaq fəslidir. 2018-ci ilin mayında Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP adı ilə məşhur olan Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin təntənəli açılışı oldu. Cənub Qaz Dəhlizinin növbəti mərhələsi olan TAP-ın da tikintisi tamamlanmışdır.

X.Yusifzadə qeyd etdi ki, Azərbaycan və onun neft-qaz sənayesi "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 25 ildə uğurlu yol keçib. Bu əminlik ifadə edildi ki, bu tərəqqi yolunda hələ çox qələbənin, yeni parlaq nailiyyətlərin şahidi olacağıq. Kəşfiyyat işləri davam edir. Gələcəkdə neft və qaz ehtiyatlarımız daha da artacaq, yeni-yeni layihələrə yol açılacaq.

Dövlət Neft Fondunun icraçı direktorunun müavini İsrafil Məmmədov bildirdi ki, qədim neft diyarı kimi tanınan Azərbaycan malik olduğu təbii resurslardan müstəqilliyini yenidən bərpa etdikdən, daha dəqiq desək, ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra yararlanmağa başladı: **"Bu əsasda 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi"nin əhəmiyyəti olduqca böyükdür. Belə ki, bu saziş təkcə iqtisadi səmərəlilik deyil, yeni müstəqillik əldə edən və müharibənin fəsadları ilə üz-üzə qalan dövlət üçün siyasi baxımdan da əhəmiyyətli rola malik idi. Bu, ulu öndər Heydər Əliyevin yeni neft strategiyasının birinci istiqaməti idi. İkinci istiqamət isə biri-birindən önəmli layihələrin həyata keçirilməsi, müasir infrastrukturun yaradılmlası idi."**

İ.Məmmədov çıxışında əsas diqqəti neft gəirlərinin səmərəli istifadəsinə, həyata keçirilən sosial-iqtisadi layihələrə yönəltdi. Bildirdi ki, üçüncü istiqamət olaraq Dövlət Neft Fondu yaradıldı: **"Neft strategiyasının növbəti mərhələsi ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən neft gəlirlərinin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsi təşkil edirdi. Ulu öndər Heydər Əliyev bu çağırışı edirdi ki, neft-Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur. Neft ilə zəngin olan ölkələrdə neft fondlarının, suveren sərvət fondlarının və yaxud digər bu kimi qurumların təsis edilməsi bu dövlətlərdə neft sərvətlərinin nəsillər arasında bərabər bölgüsünə, onların səmərəli və məqsədyönlü şəkildə idarə edilməsinə şərait yaradır. Hazırda Dövlət Neft Fondu institusional cəhətdən çox yüksək səviyyədə formalaşmaqla bərabər, ölkə daxilində, eləcə də beynəlxalq səviyyədə tanınmış və vəsaitlərin idarə edilməsi, şəffaflığın təmin edilməsi baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşdürməyə qadir olan bir quruma çevrilib. Yaradıldığı gündən şəffaflıq Fondun fəaliyyətinin əsas prinsiplərindən biridir."**

İ.Məmmədov Dövlət Neft Fondunun vəsaitlərinin yönəldildiyi istiqamətlərdən biri kimi qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlardan bəhs etdi. Bildirdi ki, dövlətimizin başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq çadır şəhərçikləri ləğv edildi, orada yaşayan insanlar üçün müasir infrastruktur yaradıldı, yeni qəsəbələr salındı.

**"Dövlət Neft Fondu tərəfindən maliyyələşən istiqamətlərdən biri də insan kapitalının təkmilləşdirilməsi məqsədilə Azərbaycan gənclərinin xaricdə təhsilidir"** söyləyən İ.Məmmədov vurğuladı ki, cənab İlham Əliyevin "neft kapitalını insan kapitalına çevirək" tezisinə xidmət edən bu proqram çərçivəsində 3 min 500-ə qədər gəncin dünyanın 32 ölkəsinin nüfuzlu ali məktəblərində təhsil almaq imkanı təmin edilib. Bu da Fondun ölkənin gələcək inkişafında əsas amil olan kadr hazırlığına yönəltdiyi ən böyük sərmayədir.

Çıxışda o da vurğulandı ki, Dövlət Neft Fondunun fəaliyyətinin əsas prinsiplərindən biri şəffaflığın qorunmasıdır. Fond Şərqi Avropa və MDB məkanında BMT-nin "Dövlət xidmətində şəffaflıq, cavabdehlik və məsuliyyətin artırılması üzrə" mükafatını alan ilk dövlət qurumudur. Dövlət Neft Fondu dünyanın 60 suveren fondu arasında şəffaflıq və hesabatlılıq indeksi üzrə dördüncü yerdədir. Fond 2018-ci ildə "Dövlət vəsaitlərinin effektli idarə olunması" göstəricisi üzrə dünyanın 100 investoru arasında 10-cu yerdə qərarlaşıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qeyd etdi ki, ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin nəticəsi olaraq ölkəmizdə 1993-cü ildən bəri sabitliyin və normal biznes mühitinin yaradılması bugünkü uğurlarımızı şərtləndirən əsas amillərdir.

O da vurğulandı ki, Azərbaycan postneft mərhələsinə qədəm qoyub, amma neft strategiyasından imtina etməyib. Ulu öndər Heydər Əliyev neft sənayesini Azərbaycan iqtisadiyyatının onurğa sütunu kimi dəyərləndirirdi. Neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişafı istiqamətində davamlı addımların atılması Azərbaycanın iqtisadi inkişafının dayanıqlığını təmin edir.

Çıxışda qeyd edildi ki, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi güclü sosial siyasətə əsas verir. Dövlətimizin başçısı İlham Əliyevin təkcə cari ilin ötən aylarında təsdiqlədiyi iki sosial paketə diqqət yönəltmək kifayətdir. Bu sənədlər 4,2 milyon insanı əhatə edib, 3,9 milyard manat vəsait xərclənib: **"Göründüyü kimi, islahatlar dərinləşir, qeyri-neft sektoru inkişaf edir, bu sektordan dövlət büdcəsinə daxil olan vəsaitlər artır və onların hesabına xalqın sosial müdafiəsinə xidmət edən addımlar sistemli xarakter alır. Bu vəhdətlik qorunacaq. Azərbaycan həm regionun, həm də Avropa coğrafiyasının çox mühüm bir ölkəsi olaraq mövqeyini möhkəmləndirəcək."**

Milli Məclisin deputatı Tahir Mirkişili bildirdi ki, Azərbaycan "Əsrin müqaviləsi"nin imzalanması ilə bir neçə strateji hədəfə nail oldu: **"Azərbaycan ilk olaraq Xəzər dənizini dünyaya açdı. Azərbaycan bu gün Xəzərdə daha çox haqqı olan ölkədir. Məhz Azərbaycan ilk dəfə olaraq Xəzər dənizinə investisiyalar cəlb etdi. Ölkəmiz bu sazişin imzalanması ilə regional inkişafın aparıcı qüvvəsinə çevrildi, həyata keçirilən layihələr təkcə ölkəmizin deyil, eyni zamanda, iştirakçı dövlətlərin uzunmüddətli iqtisadi inkişafını təmin etdi. Azərbaycanın "Əsrin müqaviləsi"ndən əldə etdiyi üçüncü mühüm uğur neft gəlirlərinin şəffaf şəkildə idarəsinə nail olmasıdır. Ötən dövr ərzində ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq investisiya yatırılıb."**

T.Mirkişili YAP nümayəndə heyətinin bu günlərdə yekunlaşan Çin səfərinə diqqəti yönəldərək bildirdi ki, səsləndirilən fikirlərdə bu mühüm məqamlar öz əksini tapmışdır ki, Azərbaycanı Çin üçün əhəmiyyətli edən iki faktordan biri dövlətimizin başçısı İlham Əliyevə hörmət və onun həyata keçirdiyi siyasətə dəstək, ikinci amil isə Azərbaycanda yaradılan müasir infrastrukturdur.

Deputat fikirlərini "Azərbaycan haradan hara gəlib çıxıb" sualı ətrafında belə ümumiləşdirmə apardı ki, ölkəmiz bu gün Cənubi Qafqaz regionu iqtisadiyyatının 60 faizinə sahibdir. Ən əsası islahatçı ölkə kimi nüfuz qazanır.

BAXCP sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev bildirdi ki, "Əsrin müqvviləsi" ulu öndər Heydər Əliyevin gərgin səylərinin və qətiyyətinin nəticəsidir. Bu gün Azərbaycan bu sazişin bəhrələrini görməkdədir.

Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı qeyd etdi ki, dövlətimizin başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının ölkəmizə qazandırdığı uğurları önə çəkərək bildirir ki, biz bütün imkanlardan istifadə edib daim irəliyə baxmalıyıq. Hər bir sahə üzrə proqramların mövcudluğu, onların xalq tərəfindən dəstəklənməsi gələcək uğurlara böyük yol açır. Ümummilli Liderin qətiyyəti sayəsində Azərbaycan düzgün yol seçdi və bu yolun düzgün olmasını bügünkü Azərbaycanın inkişafında görürük. 25 illik yol Azərbayanın davamlı uğurları ilə yadda qalıb.

Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa Azərbaycanın bugünkü uğurlarında ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının rolundan geniş bəhs edərək "Yeni əsrin müqaviləsi"ni şərtləndirən amillərə diqqəti yönəltdi.

Çıxışlarda ümumi fikir bu oldu ki, arxada qalan dövrdə Azərbaycan özünü etibarlı tərəfdaş kimi təqdim edib. Hər bir layihənin uğurlu sonluqla baş çatması yeni layihənin gündəmə gətirilməsini şərtləndirib. Bu isə öz növbəsində Azərbaycanın dövlətlər, xalqlar arasında körpü roluna yeni əlavələr edir. Dövlətimizin başçısı İlham Əliyevin 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanması mərasimində söylədiyi bu fikirlər bir daha xatırladıldı: "Əsrin kontraktı" ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərindən biridir. Bu gün bütün Azərbaycan xalqı bu kontraktın gözəl nəticələrini öz həyatında görür. Hesab edirəm ki, bugünkü mərasimin Ulu Öndərin adını daşıyan Heydər Əliyev Mərkəzində keçirilməsi də rəmzi xarakter daşıyır. 1994-cü il sentyabrın 20-də Gülüstan sarayında, o tarixi gündə ulu öndər Heydər Əliyev öz çıxışında kontraktın əhəmiyyətini qeyd etmişdir. Qeyd etmişdir ki, bu kontraktın Azərbaycana çox böyük xeyri, faydası olacaq. 23 ildən sonra biz bunun əyani sübutunu görürük. 23 ildən sonra Ulu Öndərin adını daşıyan bu möhtəşəm, dünya miqyasında ən gözəl memarlıq abidələrindən biri olan Heydər Əliyev Mərkəzində imzalanma mərasimi keçirilir. Yenə də "Azəri-Çıraq-Günəşli" yatağı üzrə. Bu, eyni zamanda, onu göstərir ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və yaşayacaq."

✍ **Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# *Xoşbəxt Yusifzadə:* “Əsrin müqaviləsi” mənim gözlərim önündə ərsəyə gəlib

## Azərbaycanın neft-qaz sənayesi “Əsrin müqaviləsi”nin imzalanmasından ötən 25 ildə əsrə bərabər inkişaf yolu keçib

**SOCAR-ın birinci vitse-prezidenti, akademik, Azərbaycan neftçilərinin ağsaqqalı, neft tariximizin canlı əfsanəsi Xoşbəxt Yusifzadə “Əsrin müqaviləsi”nin 25 illiyi ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.**

*- Xoşbəxt müəllim, “Əsrin müqaviləsi”nin 25 illik yubileyi münasibətilə şirkətinizdə, ilk növbədə, sizi təbrik etmək yerinə düşər. Çünki bu gün dillər əzbəri olan müqavilənin ərsəyə gəlməsində əsas simalardan biri olmusunuz. O dövr yaddaşınızda necə qalıb?*





- Təşəkkür edirəm. Mən də bütün Azərbaycan neftçilərini bu münasibətlə ürəkdən təbrik etmək istəyirəm. Tale belə gətirib ki, doğrudan da, “Əsrin müqaviləsi”nin ərsəyə gəlməsi mənim gözlərimin önündə baş verib.

Neft hasilatının artırılması hələ ötən əsrin 80-ci illərinin sonlarında aktual məsələyə çevrilmişdi. Bunun əsas səbəbi o idi ki, 1979-cu ildə kəşf olunmuş “Günəşli” yatağının dərinsulu hissəsində, 1985-ci ildə kəşf edilmiş “Çıraq” və 1987-ci ildə aşkarlanmış “Azəri” yataqlarında işləmək mümkün deyildi. O vaxtkı texnika və texnologiya ilə yalnız “Günəşli” yatağının suyun dərinliyi 200 metrədək olan hissəsində işləmək mümkün idi. Belə bir vaxtda Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının xarici neft şirkətləri ilə birgə işlənilməsi istisna edilmirdi. Xarici neft şirkətləri Azərbaycan hökuməti ilə danışıqlara artıq 1990-cı ildən başlamışdılar.

Məşhur xarici şirkətlərin Xəzərdəki neft yataqlarına marağını nəzərə alan SSRİ hökuməti o vaxt belə qərara gəldi ki, həmin şirkətlərlə birgə işlənilmək üçün müəyyən bir yataq ayrılsın. “Xəzərdənizneftqaz” İstehsalat Birliyinin təklifi ilə Azərbaycan hökuməti xarici şirkətlərlə birgə işlənilmək üçün “Azəri” yatağının seçildiyini bildirdi.

Azərbaycan SSR Nazirlər Sovetinin və SSRİ Neft və Qaz Sənayesi Nazirliyinin 1991-ci il 18 yanvar tarixli Qərarına əsasən, “Xəzərdənizneftqaz” İB xarici firmalarla birgə müəssisə yaratmalı və bu birgə müəssisə “Azəri” yatağının birgə kəşfiyyatı və işlənilməsini həyata keçirməli idi. Bu məqsədlə tender keçirmək üçün SSRİ Neft və Qaz Sənayesi nazirinin birinci müavini Boris Aleksandroviç Nikitinin və Azərbaycan Respublikası Dövlət Plan Komitəsi sədrinin müavini Rafiq Mirzəyevin rəhbərliyi ilə 27 mütəxəssisdən ibarət təşkilat komitəsi yaradıldı. Tenderdə iştirak etmək üçün “Azəri” yatağı barəsində məlumatlar paketi 16 xarici şirkətə, o cümlədən ABŞ-ın 7 şirkətinə göndərildi. Buna cəmi 6 şirkət cavab verdi. Tender komissiyası bu şirkətlərin təkliflərini təhlil etdi və 1991-ci ilin iyun ayında tenderə yekun vuruldu. ABŞ-ın “AMOKO” şirkəti qalib elan edildi.

Elə həmin il Azərbaycan Respublikasının nümayəndə heyəti tenderdə qalib gəldiyini “AMOKO” şirkətinə bildirmək, onun rəhbərliyi və fəaliyyəti ilə, eləcə də ABŞ-ın neft sənayesi, ələlxüsus da bu ölkədə dəniz neftinin axtarışı və hasilatı ilə yaxından tanış olmaq üçün Amerikaya səfər etdi. O vaxt





Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Fuad Musayevin başçılıq etdiyi nümayəndə heyətinin üzvlərindən biri də mən idim. Səfər yoldaşlarım isə o vaxt Azərbaycan KP MK-da məsul vəzifələrdə çalışan Natiq Əliyevlə Rauf Bayramov idi.

Bu, mənim okeanın o tayına ilk səfərim idi. ABŞ-da biz iyunun 23-dən iyulun 5-dək olduq. İyunun 24-də Hyustona gəldik və “AMOKO” şirkətinin tenderin qalibi hesab olunması barədə müsabiqə komissiyasının protokolunu şirkətin vitse-prezidenti Robert Blantona təqdim etdik. Təqdimat mərasimində “MakDermott”, “Yunokal”, “Britiş Petroleum” və digər şirkətlər barəsində Azərbaycan Respublikasının mövqeyini də bildirdik.

İkinci dəfə ABŞ-da 1992-ci ilin martında oldum.

“Azəri” yatağı ilə bağlı tender və bu tenderdə “AMOKO”nun qələbəsi artıq tarixə çevrilmişdi. Tender komissiyası özünün yekun sənədində “AMOKO” şirkətinə belə bir səlahiyyət də vermişdi ki, bu şirkət, tenderin qalibi kimi, lazım gələrsə, Azərbaycan hökumətinin razılığı ilə “Azəri” yatağında birgə işləmək üçün başqa şirkətləri də cəlb edə bilər. Buna görə də “AMOKO” şirkəti tenderdə iştirak etmiş “Yunokal” (ABŞ), “British Petroleum” (Böyük Britaniya), “Statoyl” (Norveç), “MakDermott” (ABŞ) şirkətlərini respublika rəhbərliyinin razılığı ilə birgə işləməyə dəvət etdi.

“AMOKO” şirkəti yatağın öyrənilməsinə və texniki-iqtisadi əsaslandırma (TİƏ) layihəsi üzrə işlərə 1991-ci ilin axırından başlamışdı. “Azəri” yatağına dair məlumat və sənədləri toplamaq məqsədilə şirkətin mütəxəssisləri (geoloqlar, geofiziklər, qazmaçılar, inşaatçılar, istismarçılar, ekoloqlar və başqaları) bir neçə dəfə Bakıda oldular. Lakin bu prosesin gedişində bizim mütəxəssislərin Hyustonda olmaması işlərin ləngiməsinə gətirib çıxarırdı. Buna görə də 1992-ci ilin mart ayında rəhbərlik etdiyim Azərbaycan mütəxəssislərindən ibarət qrup “AMOKO” şirkətinin Hyuston şəhərindəki mərkəzi ofisinə göndərildi. Biz “AMOKO” şirkətinin və onunla birgə işlər görən qərb şirkətləri mütəxəssislərinin apardıqları prosesə qoşulduq və “Azəri” yatağının birgə işlənilməsinin texniki-iqtisadi əsaslandırılması layihəsinin üzərində çalışmağa başladıq. Üç həftə davam edən bu birgə iş öz müsbət nəticəsini verdi. Layihənin 80 faizinə əməl edildi. Qrupların birgə fəaliyyəti nəticəsində “Azəri” yatağının ümumi konsepsiyası işlənib hazırlandı.

Hyustondan qayıtdıqdan sonra rəhbərlik etdiyim qrup texniki-iqtisadi əsaslandırmanın layihəsi üzərində işi davam etdirdi. Paralel olaraq, həmin layihə üzərində amerikalılar da işləyirdilər. Onlar bu işi 1992-ci ilin iyul ayında başa çatdırdılar. Sonra Bakıya gəlib layihəni baxılmaq üçün bizə təqdim etdilər. Bizim qrup bir ay ərzində layihəni dərindən öyrəndi, rəy və təkliflərini bildirdi. Bir müddətdən sonra bizi yenidən Hyustona dəvət etdilər. “Azəri” yatağının TİƏ layihəsini başa çatdırmaq lazım idi. 1992-ci il sentyabrın 12-də Azərbaycan Dövlət Neft Şirkəti mütəxəssislərinin bir qrupu Hyuston şəhərinə yola düşdü. Rəhbərlik etdiyim bu qrup “AMOKO”nun və qərbin başqa şirkətlərinin mütəxəssisləri ilə birlikdə “Azəri” yatağının TİƏ layihəsi üzərində işi tamamladı. Həmin il sentyabrın 28-də layihənin qəbul protokolu imzalandı. Amma belə təsəvvür yaranmasın ki, guya bütün işlər rəvan gedirdi. Yox, bir çox məsələlər yalnız böyük mübahisələrdən sonra öz həllini tapırdı.

Bu dəfə kommersiya məsələlərində də böyük irəliləyiş oldu. Kontrakt bağlanana qədər yatağa sərf ediləcək vəsaitin, ümumi kapital qoyuluşunun həcmi təxmini də olsa dəqiqləşdirildi, digər iqtisadi məsələlər, o cümlədən gəlirin bölünməsi prinsipi ümumən razılaşdırıldı.

Lakin 1992-ci ildə Azərbaycanda hakimiyyətin dəyişməsi “Azəri” yatağı üzrə xarici şirkətlərlə müqavilənin imzalanmasını təxirə saldı. Həmin ilin sentyabrında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ, 2015-ci ildən - SOCAR) yaradıldı və xarici şirkətlərlə danışıqlar davam etdirildi. 1992-ci ilin sonlarında “Azəri” yatağı üzrə danışıqların predmetinə Xəzərin Azərbaycan sektorundakı “Çıraq” yatağı da əlavə edildi. “AMOKO”, “Penzoyl” və BP şirkətləri ilə yanaşı, layihəyə Türkiyənin “Türk Petrolları Anonim Ortaq” şirkəti də (“TPAO”) cəlb edildi. Lakin 1993-cü ilin iyun ayında imzalanması nəzərdə tutulan müqavilə yenə təxirə salındı.

1993-cü il iyunun 15-də xalqın tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyev ağır iqtisadi və siyasi vəziyyətə düşmüş respublikanı fəlakətdən xilas etmək üçün neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı.

⇨ Davamı 7-ci səhifədə

# Xoşbəxt Yusifzadə: “Əsrin müqaviləsi” mənim gözlərim önündə ərsəyə gəlib

## Azərbaycanın neft-qaz sənayesi “Əsrin müqaviləsi”nin imzalanmasından ötən 25 ildə əsrə bərabər inkişaf yolu keçib






⇨ Əvvəli 6-cı səhifədə

O vaxt “Azəri”, “Çıraq”, “Günəşli” (dərinsulu hissə) yataqları ehtiyatlarının mənimsənilməsi üçün iki variantdan birini seçmək lazım idi: ya ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin düzəlməsi üçün 30-40 il gözləmək, ya da xarici neft şirkətlərini dəvət etmək. Bizim uzun illər gözləməyə daha nə vaxtımız, nə də imkanımız var idi. Respublikanın sosial-iqtisadi vəziyyəti çox gərginləşmişdi. Ölkənin neft-qaz sənayesi də dərin böhran içində idi. Buna görə də təcili tədbirlər görülməliydi. Digər tərəfdən, xarici neft şirkətləri ilə işbirliyinin qurulması zamanın tələbi idi və beynəlxalq praktika bunun üstünlüklərini geniş şəkildə nümayiş etdirirdi. Məsələ ondadır ki, dənizdə neft hasilatı riskli və böyük sərmayə qoyuluşu tələb edən işdir. Buna görə də dünyanın hətta ABŞ, Böyük Britaniya, Fransa kimi qüdrətli dövlətləri də bu məsələdə hasilatın pay bölgüsü prinsipi əsasında əlbir işləməyə, beləliklə də riskləri mümkün qədər azaltmağa çalışırlar. Azərbaycan da bu praktikadan səmərəli şəkildə istifadə edə bilərdi və etməli idi. Lakin xarici neft şirkətlərinin ölkəmizə sərmayə qoymasına qarşı çıxan qüvvələr də mövcud idi. Bu qüvvələr həm respublikanın özündə, həm də xaricdə fəaliyyət göstərirdilər. Buna görə də Azərbaycan Prezidenti neftçi mütəxəssisləri ətrafına toplayıb onlarla məsləhətləşdi. Prezidentin və neftçilərin fikirləri üst-üstə düşdü. Xarici neft şirkətlərini ölkəmizə dəvət etmək qərara alındı. Beləliklə də Azərbaycanın ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasına start verildi. Xarici şirkətlərlə danışıqlar bərpa olundu.

Danışıqlar 1994-cü ilin martında Bakıda başlandı, sonra Türkiyənin İstanbul şəhərində davam etdirildi. Danışıqların həlledici mərhələsi Amerikanın Hyuston şəhərində keçirildi. Buradakı danışıqlarda “Azəri” və “Çıraq” yataqları ilə yanaşı layihəyə “Günəşli” yatağının dərinsulu hissəsini də qoşmaq qərara alındı. Hyustonda 1994-cü il iyulun 21-dən sentyabrın 4-dək 45 gün ərzində aparılan danışıqlarda kəskin dramatik məqamlar az olmadı. Danışıqlar ağır gedirdi. Tərəflərin hər biri öz mövqeyini, öz mənafeyini qoruyurdu. Bəzən iş o yerə çatırdı ki, ya qarşı tərəf, ya da Azərbaycan tərəfi danışıqları tamamilə dayandırmaq fikrinə düşürdü. Bir dəfə qarşı tərəf şərt qoydu ki, Azərbaycan Rusiya ilə danışıb, Xəzər dənizinin hüquqi statusunu həll etməsə, danışıqlar davam etdirilməyəcək. Təsəvvür edirsinizmi, bu, nə demək idi? Məlum olduğu kimi, Rusiya ilə bu məsələ Prezident Heydər Əliyevin səyi nəticəsində yalnız 2002-ci ildə həll edildi. Deməli, 1994-cü ildə Amerikanın Hyuston şəhərində danışıqlar dayandırılsaydı, biz yeddi-səkkiz il gözləməli olacaqdıq. Nümayəndə heyətimizin üzvü, o vaxt Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyev qarşımıza qoyulmuş şərt barədə Ulu Öndərimizə məlumat verdi, onun göstərişi ilə Vaşinqtona uçdu, orada çox faydalı görüşlər keçirib, məsələni yoluna qoydu.

Nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi.

Nəhayət, tərəflərin birgə işləmək, Xəzərin Azərbaycan sektorundakı zəngin neft və qaz yataqlarından ədalətlə bəhrələnmək istəyi üstün gəldi. 1994-cü il sentyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin “Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində” Fərmanı elan edildi. 1994-cü il sentyabrın 20-də isə Bakıda dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dair sonralar “Əsrin müqaviləsi” kimi tanınan məşhur Saziş imzalandı. Saziş Azərbaycan Respublikası Milli Məclisinin 15 noyabr 1994-cü il tarixli qərarı ilə təsdiq olundu.

***- Siz “Əsrin müqaviləsi”nin imzalanmasının Azərbaycan üçün əsas əhəmiyyətini nədə görürsünüz?***

- “Əsrin müqaviləsi”nin Azərbaycan üçün çox böyük əhəmiyyəti oldu. Mən yalnız bir neçə əsas məsələni qeyd etmək istəyirəm.

Siyasi cəhətdən müqavilənin əhəmiyyəti ondadır ki, dünyanın aparıcı dövlət və şirkətləri bir daha əmin oldular: Azərbaycan müstəqil dövlət və etibarlı tərəfdaşdır, burada işləmək və bu ölkəyə sərmayə qoymaq olar. Heç təsadüfi deyil ki, bu saziş imzalandıqdan sonra xarici şirkətlərlə daha 35 saziş bağlandı.

Müqavilənin iqtisadi əhəmiyyəti isə odur ki, neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən - 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatdı. Beləliklə, neft hasilatı 5,6 dəfə artdı.

Hazırda respublikada hasil edilən neftin və qazın əsas hissəsi “Azəri-Çıraq-Günəşli” yataqları hesabına əldə edilir. Artıq 20-ci ildir ki, “Azəri-Çıraq-Günəşli” layihəsinin iştirakçıları “mənfəət nefti”ndən gəlir əldə edirlər. 1999-cu ilədək neftin satışından əldə edilən gəlir sərmayə qoyuluşunun ödənilməsinə sərf olunurdusa, həmin ilin dekabrından Azərbaycanın “mənfəət nefti” xarici bazarlara çıxarılır. 2019-cu il sentyabrın 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 287 milyon tona qədər “mənfəət nefti” satılmışdır ki, bu da AÇG üzrə indiyədək hasil edilmiş bütün neftin 58 faizi qədərdir. Mənfəət neftinin həcmi ilbəil artır.

“Əsrin müqaviləsi”nin ən böyük nailiyyətlərindən biri də odur ki, bu müqavilə yalnız AÇG yataqlarının işlənməsi ilə məhdudlaşmadı. Bu böyük layihənin törəmələri meydana gəldi ki, onların da birincisi Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri oldu. “Əsrin müqaviləsi”nin övladı olan bu kəmər 2005-ci il may ayının 28-də istismara verildi, 2006-cı il iyulun 13-də isə onun rəsmi açılışı oldu.

İstəyirəm biləsiniz ki, əgər “Əsrin müqaviləsi” ümummilli liderimiz Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri onun ikinci şah əsəri oldu.

Mən bir məsələni də qeyd etmək istəyirəm: vaxtilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəməri layihəsinin də əleyhdarları vardı. Amma indi baxın: 2019-cu il sentyabrın 1-dək dünya bazarlarına 554 milyon tona qədər Azərbaycan nefti çıxarılıb ki, bunun da 158 milyon tonu Bakı-Supsa, Bakı-Batum, Bakı-Novorossiysk kəmərləri və dəmir yolu ilə, 396 milyon tonu isə Bakı-Tbilisi-Ceyhan kəməri ilə nəql edilib. Əgər bu kəmər olmasaydı, bu qədər nefti dünya bazarlarına biz necə aparıb çıxara bilərdik?!

***- “Əsrin müqaviləsi” 30 il müddətinə imzalanmışdı və 2024-cü ildə başa çatacaqdı. Lakin, bildiyimiz kimi, müqavilə 2050-ci ilə qədər uzadıldı. Bəs, bu qərarın qəbul olunması necə baş verdi?***

- “Əsrin müqaviləsi” başa çatdıqdan sonra nə olacaq?” - bu sual həm bizi, həm də xarici tərəfdaşlarımızı düşündürürdü. Qarşımızda bir neçə variant var idi.

Birinci variant BP şirkətinin operatorluq etdiyi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ilə əməkdaşlığı davam etdirmək idi. İkinci fikir o idi ki, bəlkə biz başqa xarici şirkətlərlə əməkdaşlığa gedək, onlarla müqavilə bağlayaq. Üçüncüsü də o idi ki, 2024-cü ildən sonra AÇG-ni özümüz işlədək.

Bu variantların hər biri dönə-dönə təhlil edildi. Sonda biz BP şirkəti və onun tərəfdaşları ilə işin təklif etdiyimiz kommersiya şərtləri əsasında davam etdirilməsini üstün tutduq. Ona görə ki, 1994-cü ildən AÇG-də işləyən BP və onun tərəfdaşları bu yataqlara, onların xüsusiyyətlərinə dərindən bələd olmuşdular. BP ilə məsləhətləşmələr, danışıqlar aparıldı. Onlar da əməkdaşlığı davam etdirməkdə maraqlı olduqlarını bildirdilər. Danışıqlarımız 2017-ci il sentyabrın 14-də Bakıdakı Heydər Əliyev Mərkəzində “Azəri-Çıraq-Günəşli” yataqlarının birgə işlənməsi haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş müqavilənin imzalanması ilə nəticələndi. Bu kontrakt “Əsrin müqaviləsi”nin ömrünü 2050-ci ilə qədər uzatdı. Yeni müqavilədə Azərbaycan üçün olduqca sərfəli şərtlər müəyyən edilib. Bu barədə artıq hər kəs məlumatlıdır.

***- “Əsrin müqaviləsi”nin yubileyi və neftçilərin peşə bayramı günündə biz “Şahdəniz” epopeyasından da danışmaya bilmərik. Çünki “Əsrin müqaviləsi” olmasaydı, “Şahdəniz” də olmayacaqdı.***

- “Şahdəniz” ulu öndərimiz Heydər Əliyevin üçüncü şah əseridir. “Əsrin müqaviləsi” Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda ehtiyatları bu günə 1,2 trilyon kubmetr qazdan və 240 milyon ton kondensatdan ibarət olan nəhəng “Şahdəniz” yatağının kəşf edilməsi və “Şahdəniz” qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük miqdarda qaz ixrac edən bir ölkə kimi tanıtdırdı.

İşlənmənin əvvəlindən “Şahdəniz” yatağından 110 milyard kubmetrdən çox qaz və 27 milyon tona qədər kondensat hasil edilib. 2019-cu il sentyabrın 1-dək “Şahdəniz-1” layihəsi üzrə Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana 8,7 milyard kubmetr və Türkiyəyə 63 milyard kubmetr qaz verilib.

“Şahdəniz-2” layihəsi çərçivəsində Azərbaycan qazının Avropaya nəql edilməsi və bu məqsədlə “Cənub Qaz Dəhlizi”nin çəkilməsi bizim müasir qaz epopeyamızın ən parlaq fəslidir. “Cənub Qaz Dəhlizi”nin açılışı 2018-ci il mayın 29-da Səngəçal terminalında oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə keçirilən təntənəli mərasimdəki nitqində dedi ki, “Cənub Qaz Dəhlizi” layihəsinin uğurlu icrası sayəsində ölkəmizin həyatında, neft-qaz sənayesinin inkişafında yeni dövr başlanır.

2018-ci il iyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Ukrayna, Serbiya, Şimali Kipr respublikaları rəhbərlərinin iştirakı ilə “Cənub Qaz Dəhlizi”nin 2000 kilometrlik hissəsinin - TANAP adı ilə məşhur olan Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin təntənəli açılışı oldu. Beləliklə də, “Şahdəniz” qazının Cənubi Qafqaz ixrac boru kəməri və TANAP vasitəsilə Türkiyəyə nəqlinə başlandı. İndiyədək TANAP kəmərinə 2 milyard kubmetrdən çox “Şahdəniz” qazı vurulub.

2019-cu il iyulun 1-də isə TANAP Azərbaycan qazının Avropaya nəql edilməsi üçün tam hazır vəziyyətə gətirilib.

“Cənub Qaz Dəhlizi”nin növbəti mərhələsinin - TAP adı ilə tanınan Trans-Adriatik boru kəmərinin tikintisi də demək olar ki, tamamlanıb. 878 kilometr uzunluğunda kəmər Yunanıstan və Albaniyadan, Adriatik dənizinin dibindən keçəcək və İtaliya torpağında yenidən quruya çıxacaq, bu ölkələrə qaz nəql etməyə başlayacaq.

***- Xoşbəxt müəllim, bizimlə bu möhtəşəm tarixi bölüşdüyünüz üçün sizə minnətdarlığımızı bildiririk.***

- Bu tarixi hamının bilməsi vacibdir. Azərbaycan Respublikası və onun neft-qaz sənayesi “Əsrin müqaviləsi”nin imzalanmasından ötən 25 ildə əsrə bərabər bir inkişaf yolu keçib. Əminəm ki, bu böyük tərəqqi yolunda biz hələ çox qələbənin, yeni parlaq nailiyyətlərin şahidi olacağıq.

# Sosial-iqtisadi islahatlar:

# Əhalinin məşğulluğu prioritetdir

***Neft amilini insan kapitalına çevirmək tezisini islahatları ilə reallaşdıran, qeyri-neft sektorunun genişləndirilməsini insan amilinə diqqətin ifadəsi adlandıran Prezident İlham Əliyevin sənaye, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyalarının inkişafı naminə gördüyü işlər ilk növbədə ÜDM-də özəl bölmənin payının artırılmasını təmin edir. 2013-2023-cü illəri əhatə edən dövlət siyasətinin əsas istiqamətlərində də iqtisadiyyatın milli maraqlar və daxili resurslar üzərində qurulması, şaxələndirmə, qeyri-neft sektorunun gücləndirilməsi ilə sabit iqtisadi inkişafa nail olunması, bölgələrdə sosial-iqtisadi vəziyyətin müasir tələblər səviyyəsinə çatdırılması, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, yerli məhsulların dünya bazarlarına çıxarılması, əhalinin etibarlı sosial müdafiəsinin təşkili, yoxsulluq səviyyəsinin, işsizliyin minimuma endirilməsi, orta təbəqənin cəmiyyət həyatında rolunun artırılması birbaşa insan amilinə diqqətdir.***



"Dövlət siyasətimizin əsasında insan amili dayanır" söyləyən dövlət başçımız İlham Əliyevin əsas tələbi budur ki, ölkədə sağlam biznes mühitinin təkmilləşdirilməsi diqqətdə saxlanılmalı, makroiqtisadi sabitlik qorunmalı, istehlak bazarına nəzarət gücləndirilməli, bu sahədə aparılan islahatlar davam etdirilməli, qiymətlərin süni şəkildə şişirdilməsinə yol verilməməli, inhisarçılıq halları aradan qaldırılmalı, lazımsız yoxlamalara son qoyulmalıdır.

Məqsəd bölgə əhalisinin daha çox maraq göstərdiyi kiçik və orta sahibkarlığı gücləndirmək, fermerlərə və iş adamlarına göstərilən maddi, mənəvi, hüquqi dəstəyi artırmaq, şəffaflığı və operativliyi təmin edən "bir pəncərə" sisteminin əhatə dairəsini genişləndirməkdir.

İnsanların rahatlığı, ölkə vətəndaşlarının sosial müdafiəsinin etibarlı təminatı istiqamətində aparılan siyasətin bariz nümunəsi şəhid ailələrinə verilən birdəfəlik 11 min manatlıq ödəmələrdir. Cənab İlham Əliyevin ən çox diqqət yetirdiyi məsələlərdən olan əmək haqqı və pensiya islahatlarının davam etdirilməsi, məcburi köçkün və qaçqınların, əlillərin, şəhid ailələrinin mənzillərlə, avtomobillərlə təminatıdır. Respublikanın 30-dan çox şəhər və kəndində 100-dən artıq müasir qəsəbələrin salınması heç bir ölkədə anaolqu olmayan qayğı, insanların sosial müdafiəsinin uğurlu təşkilidir.

Cənab İlham Əliyevin sərəncamları əsasında cari ildə pensiya və əməkhaqlarının, müavinətlərin bir neçə dəfə artırılması, sentyabr ayının 1-dən etibarən yeni qaydalarla ödəmələrin tətbiqi ölkədə insan amilinə verilən dəyərdir.

Sərəncamlara əsasən Qarabağ müharibəsi əlilləri üçün nəzərdə tutulan sosial müavinətlər, tələbələrin təqaüdləri də artırılmışdır. Önəmli məsələ olan problemli kreditlərlə bağlı çətinliklərin aradan qaldırılması da ailələrin maddi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir . "Digər məsələ vaxtilə tikilmiş, ancaq istismara qəbul edilməmiş evlərlə bağlı idi. Çoxmənzilli binalarda yaşayan vətəndaşlar əziyyət çəkirdilər, çünki o binalarla bağlı sənədləşmə işləri aparılmamışdır, müəyyən çatışmazlıqlar var idi. Ona görə bu məsələ ilə bağlı da Fərman imzalandı və indi komissiya işləyir. Artıq evlərin, mənzillərin sənədləşməsi prosesi başlamışdır. Mən bu yaxınlarda göstəriş vermişdim ki, bu işlər daha da sürətlə getsin və o qüsurlar tezliklə aradan qaldırılsın, bu məsələ də öz həllini tapsın" söyləyən cənab İlham Əliyev hər bir vətəndaşın Prezidenti olduğunu əməli fəaliyyəti ilə təsdiqlədi.

Şamaxıda, Ağsuda, İsmayıllıda baş verən zəlzələlərin nəticələrinin aradan qaldırılması üçün xüsusi tapşırıqlar verən dövlət başçımız İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təbii fəlakətin baş verdiyi bölgələrdə olmaları, vaxtaşırı aparılan işlərin gedişi ilə maraqlanmaları vətəndaşlara göstərilən qayğının ifadəsidir.

Ümumiyyətlə, son vaxtlarda həyata keçirilən sosial islahatlar nəticəsində üç milyon insan imzalanmış Sərəncam və fərmanlardan bu və ya digər formada faydalanmış, vətəndaşların maddi vəziyyəti yaxşılaşmış, insanları narahat edən problemlər həll olunmuş, yeni iş yerləri açılmışdır.

Sevindirici haldır ki, ölkəmizdə həyata keçirilən sosial islahatlar, "ASAN xidmət" layihəsi qabaqcıl təcrübə kimi beynəlxalq səviyyədə öyrənilir, bəyənilir. BMT-nin qlobal inkişafla bağlı bütün təşəbbüslərində iştirak edən, çağırışlarına qoşulan Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinin müvəffəqiyyətlə həyata keçirilməsi ölkəmizdə məşğulluq siyasətinin davamlı olmasına imkanlar yaradır. Azərbaycan BMT-nin üzvü olan dövlətlərin iştirakı ilə təşkilatın Dayanıqlı İnkişaf Sammitində təsdiqlənmiş və qüvvəyə minmiş Dayanıqlı İnkişaf Məqsədləri adlanan 17 məqsədi və bu məqsədlərə müvafiq olaraq müəyyən edilmiş 169 hədəfi özündə birləşdirən "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf gündəliyi" razılaşmasına da qoşulub.

"Bizim özünüməşğulluq proqramına böyük ümidlərimiz var. Bu proqram həm iqtisadi inkişafımıza təkan verəcək, xüsusilə regionlarda həm məşğulluq probleminin həllini sürətləndirəcək, eyni zamanda, bəzi vətəndaşlarımızı ələbaxımlıq vərdişindən çəkindirəcək" söyləyən Prezident İlham Əliyevin diqqət yetirdiyi məsələlərdən biri də əhalinin məşğulluq səviyyəsinin artırılmasıdır. Dövlətimizin başçısı İlham Əliyevin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Fərmanının tətbiqi ilə bu sahədə aparılan islahatlar sürətləndirildi. Pilot layihələr hazırlandı. "ABAD", bu istiqamətdə yaradılan mərkəzlər sahibkarları, kənd təsərrüfatı məhsullarını emal edən müəssisələri müasir standartlara uyğun zəruri avadanlıq, texnologiyalarla təchiz edir, xammalın hazır vəziyyətə gətirilməsinə yardım göstərir.

Məqsəd ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaqdır. "ABAD" iştirakçı ailələrə hüquqi təlimlər keçərək maliyyə-mühasibatlıq sahəsində, məhsulların regionlardan satış mərkəzlərinə daşınması üçün də yardımlar göstərir. "ABAD"ın əməkdaşlıq etdiyi şirkətlər tərəfindən məhsullar toplanılır, vahid mərkəzlərdən satış yerlərinə çatdırılır. Bu isə əlavə vaxt və vəsait sərfini aradan qaldırır.

Bir sözlə, Azərbaycanda qeyri-formal əmək münasibətlərindən formal əmək münasibətlərinə keçidin stimullaşdırılmasına yönələn institusional və praktiki platformanın formalaşdırılması, vətəndaşların məşğulluğunun təmin edilməsi, iş yerlərinin yaradılması, insanların əmək və sosial hüquqlarının qorunması, maddi və sosial tələbatlarının ödənilməsi yeni islahatların əsas hədəflərindəndir.

Azərbaycan brendi kimi təcrübəsi dünyada təbliğ olunan "ASAN xidmət", Ailə Biznesinə Asan Dəstək (ABAD), Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli " Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) son illərdə həyata keçirilən, maraq doğuran layihələrdəndir. Dövlətin sosial siyasətinin mühüm istiqamətlərini təşkil edən sistemin təkmilləşdirilməsinin nümunəsi olan bu layihələrin hər biri əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış DOST Agentliyinin Konsepsiyasında qeyd olunduğu kimi, sosial xidmətlər sisteminin şəffaflaşdırılması istiqamətində aparılan islahatların tətbiqi ilə mühüm keyfiyyət dəyişikliyinə nail olunacaq.

2019-2025-ci illərdə Bakıda və respublikanın rayonlarında mühüm keyfiyyət dəyişikliyi üçün imkanları artıran 31 DOST mərkəzinin yaradılması nəzərdə tutulur. Bu mərkəzlər şəbəkəsinin fəaliyyəti, müasir texnologiyaların tətbiqi ilə əmək, sosial müdafiə, məşğulluq xidmətlərinin əhatə dairəsi genişlənəcək, əhaliyə səyyar xidmətlər göstəriləcək.

Ölkəmizə gələn qonaqları heyran edən bu yeniliklər qaragüruhçu radikal müxalifətin keyfinə soğan doğrayır. Görülən işlərə qara yaxmağa vərdiş etmiş radikallar gündəmdə qalmaq üçün indi də "işsizlik axtarışı"na başlayıblar.

Bəllidir ki, sadalanan, nikbinlik yaradan belə statistik rəqəmlərə kölgə salmaq üçün təxribatlar aparan radikalların, müxalif baxışlı ekspert və bloqçuların "işsizlik statistikası" ilə bağlı manipulyasiya cəhdləri xarici ölkələrdən idarə olunan xəyanətkarların qrant naminə apardıqları təxribatlardır. Radikalların əsası olmayan şərhlərinin əksinə olaraq ölkədə işsizliyin minimuma endirilməsi üçün daha önəmli islahatlar aparılıb. Statistik rəqəmlər müxalifət funksionerlərinin və radikal düşüncəli bəzi ekspertlərin iddialarının əsasssız olduğunu təsdiqləyir. Yuxarıda qeyd olunduğu kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən biri əhalinin məşğulluq səviyyəsinin artırılmasıdır. Belə ki, 2003-2018-ci illər ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılıb, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilib. 2019-cu ilin iyulun birinə olan işsizliyin səviyyəsi - 4,9% ,işsiz əhalinin sayı - 252,8 min nəfər olub. Kişilər arasında işsizlik 4,3% (106,3 min nəfər), qadınlar arasında 5,6 faizdir. Hazırda ölkə üzrə əmək qabiliyyətli yaşda olan əhalinin sayı - 6814,0 min, iqtisadi fəal əhalinin sayı isə 5168,0 min nəfərdir. Əmək qabiliyyətli yaşda olan iqtisadi fəal əhalinin (kişilər 15-64 yaşda, qadınlar 15-61,5 yaşda) sayı 5103,1 min nəfərdir.

Əmək qabiliyyətli yaşda olan iqtisadi qeyri-fəal əhalinin (kişilər 15-64 yaşda, qadınlar 15-61,5 yaşda) sayı - 1646,0 min nəfəri təşkil edir. İqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslərin sayı 150,5 min, muzdla işləyənlərin sayı 1613,8 nəfərdir. Dövlət sektorunda 902,4 min, özəl sektorda isə 711.4 min nəfər vətəndaş çalışır.

Belə ki məşğul əhalinin sayı - 4915,2 min nəfərdir.

Təkcə cari ildə həyata keçirilən islahatları sadalamaqla ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlara qarşı aparılan qara piarın əsassız olduğunu görmək olar.

Məşğulluq xidməti orqanlarında işsiz və işaxtaran kimi qeydiyyatda olanlar 198.286 nəfərdir. İşlə təmin olunanların sayının 60 475 nəfəri ötməsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 45,6 % artım deməkdir.

Dövlət şirkətləri tərəfindən 20 000 nəfər sosial işçinin müqaviləsi uzadılmış, cari ildə əlavə 6 min iş yeri yaradılmışdır. (SOCAR - 3 min, "Azərişıq" ASC - 2300, "Azərenerji" -700)

1243 nəfərə ödənişinin orta aylıq məbləği 227.6 manat olmaqla işsizlikdən sığorta haqqı ödənilib.

Özünüməşğulluq proqramına qoşulanların sayının cari ilin sonunadək 10 000 nəfərə çatdırılması planlaşdırılır. Qeyri-formal məşğulluqla mübarizəyə diqqət artırılıb. DOST İş Mərkəzi tərəfindən 38 min iş yeri yaradılıb, 40 minə yaxın vətəndaşa göndəriş verilib. 1190 nəfər, xüsusilə gənc və evdar qadınlar peşə hazırlığına cəlb edilib, 67 033 şəxsə peşəyönümlü məsləhətlər verilib. İşsiz və işaxtaranlar üçün respublikasının müxtəlif rayon və şəhərlərində mütəmadi olaraq əmək yarmarkaları təşkil edilir

Məşğulluq alt sistemində yaradılan "Vakansiya Bankı"nda yerləşdirilən" yeni və ya boşalan iş yerləri (vakansiya) barədə məlumatlarla hər kəs tanış ola bilər.

Göründüyü kimi, radikal müxalifin respublikamızdakı işsizliklə bağlı sərsəmləmələri yalnız manipulyasiya, ölkəmizdə sürətlə davam edən sosial-iqtisadi inkişafımıza qərəzli yanaşmadır. "Əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcək. Tam əminlik var. Ölkə uğurla inkişaf edir. Ölkəmizdə sabitlik təmin olunur. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Siyasətimizə göstərilən dəstək bizi gücləndirir. Əlbəttə ki, biz daha inamla irəliyə, nikbinliklə gələcəyə baxırıq. Çünki ölkə qarşısında duran bütün vəzifələr icra edilir" söyləyən cənab İlham Əliyevi dəstəkləyən Azərbaycan xalqı ölkəmizin daha da qüdrətlənməsi naminə dövlət başçımızın ətrafında daha sıx birləşir.

✍ **Xuraman İsmayılqızı, *"İki sahil"***

# YAP Ağdam və Bərdə rayon təşkilatlarının fəalları ilə görüş

**Sentyabrın 18-də Bərdə Rayon Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyasının Bərdə və Ağdam rayonlarından olan fəalları ilə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Həsənov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev və KİV nümayəndələri iştirak ediblər.**











Tədbirdən öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Tədbiri giriş sözü ilə YAP Bərdə rayon təşkilatının sədri Fəqət Şadlinskaya açaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin nurlu ideyalarının mükəmməl daşıyıcısı olan Yeni Azərbaycan Partiyasının müasir müstəqil Azərbaycan tarixində bugünkü yeri və rolundan danışıb. Vurğulayıb ki, hər millətin bir qurtuluş tarixi var və həmin tarixi elə o xalqın sırasından fədakarcasına çıxmış lideri yaradır. Əslində böyük qələbələri güclü dövlətlər yaradır tendensiyasına güvənərək demək olar ki, indi iqtisadi-siyasi inkişafını sosial-mədəni tərəqqiyə çevirərək özünün Avropaya inteqrasiyasını sürətləndirən Azərbaycan dövləti mövcuddur.

Tədbirdə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini Əli Həsənov çıxış edərək bildirdi ki, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycan ötən illər ərzində böyük inkişaf yolu keçib. Ümummilli Liderin ölkəyə ən böyük töhfələrindən biri də onun siyasi məktəbində böyük dövlət adamı kimi yetişmiş Prezident İlham Əliyevdir. Cənab Prezident bu gün ölkəmizin inkişafı üçün çox əhəmiyyətli işlər görür. Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxlayaraq möhkəmləndirməsi, eyni zamanda, iqtisadi tənəzzüldən, iqtisadi dirçəlişə qədər yol keçməsi Ümummilli Liderin adı ilə bağlıdırsa, Azərbaycanın bu gün regionun lider dövlətinə çevrilməsi isə Prezident İlham Əliyevin qlobal siyasətə, modern dövlət quruculuğuna üstünlük verməsinin nəticəsidir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Bəxtiyar Əliyev bildirdi ki, hər bir xalq yalnız o zaman öz intellektual qabiliyyətini, arzu, istək və milli ideyalarını həyata keçirə bilir ki, onun suverenliyinə, ərazi bütövlüyünə, maddi və mənəvi sərvətləri üzərində sahibliyinə, insan hüquqları və azadlıqlarına təminat verən müstəqil, hüquqi, dünyəvi dövləti olsun. Bu, bir həqiqətdir ki, indiki müstəqil, inkişaf edən, qüdrətli Azərbaycan ümummilli lider Heydər Əliyevin millətə ən böyük əmanətidir. Bu ölkəni məhz möhtərəm Prezidentimiz İlham Əliyev çox böyük təhlükələrdən qoruyaraq lider dövlətə çevirib.

Tədbirdə çıxış edən Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev bildirdi ki, geniş siyasi təcrübəsi, həmçinin böyük dövlətçilik vərdişləri olan Ulu Öndər qısa müddətdə ölkədə siyasi sabitlik yaratmaq, əhalinin sosial rifahını yüksəltmək, beynəlxalq aləmdə əlaqələri bərpa etmək, peşəkar ordu quruculuğu ilə məşğul olmaq kimi ciddi vəzifələrin öhdəsindən ağlı, zəkası və zəngin siyasi təcrübəsi sayəsində gəldi. Xüsusən, milli sərvətimiz olan dövlət müstəqilliyimizin qorunub saxlanması Onun yenilməz iradəsi və qətiyyəti ilə reallaşdı. O, Azərbaycanı dünyaya müstəqil, demokratik, hüquqi dövlət kimi tanıtdı, burada müstəqil dövlətçiliyin əsaslarını, xalqın iradəsini ifadə edən qanunverici, icra və idarəçilik orqanlarını formalaşdırdı. Məhz güclü dövlətçilik bacarığı, siyasətdə qətiyyətlilik nümayiş Onu böyük siyasətçilərin nümunə göstərdiyi və qibtə etdiyi qədər nufuzlu etmişdi.

YAP Ağdam rayon təşkilatının sədri Allahverən Əliyev çıxışında bildirdi ki, Ulu Öndərin ölkəni və xalqı hətta ümidsiz hesab olunan və heç kəsin gözləmədiyi ən çətin vəziyyətlərdən çıxış yolu tapmaq bacarığı var idi. Bu mənada, Ümummilli Liderin qarşısında həmin böyük zamanı qısaltmaq kimi çox ağır və məsuliyyətli bir vəzifə dururdu. Xalq isə Ulu Öndərə inanırdı. İnanırdı ki, O bu dövrü qısa müddətdə, həm də uğurla keçəcəkdir. Onun dərin düşüncəsi, əqli və zəkası, uzaqgörən siyasəti nəticəsində ölkəmiz qısa müddətdə beynəlxalq təşkilatlara üzv seçildi, Avropaya inteqrasiyası sürətləndi. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilərək Xəzər neftinin dünya bazarına çıxarılması böyük dövlət adamı Heydər Əliyevin neft strategiyasının təntənəsidir.

Təbirdə partiya fəalı Rzaqulu Səfərov çıxış edərək dedi ki, Ümummilli Liderin ölkəyə ən böyük töhfələrindən biri də Onun siyasi məktəbində böyük dövlət adamı kimi yetişmiş Prezident İlham Əliyevdir. Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxlayaraq möhkəmləndirməsi, eyni zamanda, iqtisadi tənəzzüldən iqtisadi dirçəlişə qədər yol keçməsi Ümummilli Liderin adı ilə bağlıdırsa, Azərbaycanın bu gün dünyada lider ölkəyə çevrilməsi Prezident İlham Əliyevin qlobal siyasətə, modern dövlət quruculuğuna üstünlük verməsinin nəticəsidir.

Tədbirin sonunda YAP sıralarına yeni daxil olmuş gənclərin bir qrupuna partiyanın üzvlük vəsiqələri təqdim olundu.

**Elçin Zaman,**
***"İki sahil"***

## DÖVLƏT KOMİSSİYASI:

# Azərbaycan Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryan ilə mübadiləsinə hazırdır

Azərbaycan Respublikası tərəflərdə saxlanılan əsir-girovların "hamının-hamıya" prinsipi əsasında azad olunması və gələcəkdə əsir-girov götürülən şəxslərin, eyni zamanda, meyitlərin üç gündən gec olmayaraq qaytarılmasını aidiyyəti beynəlxalq təşkilatların vasitəçiliyi ilə 2016-cı ilin aprel ayında Ermənistan Respublikasına təklif edib.




Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, bunun əksinə olaraq, kütləvi informasiya vasitələrində son günlər yayılmış məlumatlarda Ermənistan tərəfinin işğal altındakı Kəlbəcər rayonunda 2014-cü ildə girov götürülərək qeyri-qanuni azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Ermənistan Respublikasının vətəndaşları olan erməni hərbçiləri - Azərbaycan Respublikası ərazisində terror-təxribat əməllərinə görə həbs edilmiş Karen Kazaryan və cəbhənin Füzuli istiqamətində könüllü surətdə Azərbaycan Ordusuna təslim olmuş Araik Kazaryan ilə qarşılıqlı mübadilələrinə Azərbaycan tərəfinin hazır olmadığı barədə açıqlamalar verildiyi qeyd olunur.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bir daha bildirir ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan rəhbərlərinin, eləcə də Xarici İşlər nazirlərinin görüşlərində, habelə Dövlət Komissiyasının aidiyyəti beynəlxalq təşkilatlarla 2017-ci və 2018-ci illərdə apardığı müzakirələr zamanı əsir-girovların "hamının-hamıya" formatında azad olunması ilə bağlı Azərbaycan Respublikasının prinsipial mövqeyi dəfələrlə qarşı tərəfə çatdırılıb.

Dilqəm Əsgərovun və Şahbaz Quliyevin Karen Kazaryan və Araik Kazaryan ilə mübadilə edilməsinə Azərbaycan tərəfinin hazır olması barədə Dövlət Komissiyası növbəti dəfə aidiyyəti beynəlxalq təşkilatlara 2019-cu il 11 sentyabr tarixində rəsmi məlumat verib.

Dövlət Komissiyası ölkəmizin beynəlxalq humanitar hüququn norma və prinsiplərinə daim əməl etdiyini yenidən diqqətə çatdırır, sentyabrın 7-də Rusiya Federasiyası ilə Ukrayna arasında əsirlərin "hamının-hamıya" mübadiləsini yüksək insanpərvərlik aktı kimi təqdir edir və bu humanizm nümunəsinə uyğun olaraq, Azərbaycan ilə Ermənistan arasında əsir-girovların eyni prinsip əsasında qısa müddətdə azad edilməsinə tərəfdar olduğunu bir daha bəyan edir.

# Əflatun Amaşov QDİƏT PM-in komitəsinin iclasında çıxış edib



Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) İqtisadiyyat, ticarət, texnologiya və ekologiya məsələləri üzrə komitəsinin Türkiyənin Giresun şəhərində keçirilən 53-cü iclasında çıxış edib.

Ə.Amaşov çıxışında Azərbaycanda aparılan vergi siyasətinin xüsusiyyətlərindən söz açıb, bu sahədəki islahatların müxtəlif detallarına diqqət çəkib. Deputat bildirib ki, ölkənin artan inkişafı xaricdən yeni investorların cəlb edilməsini şərtləndirir. Bu proses isə daha əlverişli vergi mühitinin yaradılmasını qaçılmaz reallığa çevirməkdədir. Azərbaycan dövləti siyasətini məsələyə məhz mövcud kotekstdən baxmaqla qurur, təbii ki, yerli investorların da maraqları nəzərə alınır. "Əldə edilən uğurlara baxmayaraq, nəzərə almaq lazımdır ki, Azərbaycanın vergi sistemi yenidən qurulur" deyən Ə.Amaşov ölkəmizin bu sahədəki beynəlxalq əməkdaşlığının gözlənilən perspektivlərinə də diqqət çəkib.

Deputat, həmçinin Ermənistan parlamenti sədrinin müavini Vahe Enfiajyanın çıxışında səsləndirdiyi fikirlərinə də münasibət bildirib: "Ermənistan nümayəndəsi siyasi məsələdən söz açdı. Ümumən belə deyim: mənim və ölkəmin mövqeyi bundan ibarətdir ki, Azərbaycan torpaqlarının 20 faizi işğal olunub. On minlərlə insanımız öz yurd-yuvasından qovulub. Minlərlə insanımız qətlə yetirilib. Azərbaycan tərəfi hazırda Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etməyə çalışır. Əgər bu alınmasa, torpaqlarımızı güc yolu ilə geri qaytarmaq haqqını özümüzdə saxlayırıq. Tam əmin olun ki, zərurət yarandığı təqdirdə, bu haqdan istifadə edilərək".

Qeyd edək ki, Ermənistan parlamenti sədrinin müavini V.Enfiajyan çıxışında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin bir neçə ay öncə Bakıda keçirilmiş sessiyasında Dağlıq Qarabağın Azərbaycan torpağı olmasına dair fikirlərin səslənməsini yolverilməz adlandırmışdı.

# Sumqayıt Təlim-Tədris Mərkəzi yeni tədris ilinə uğurla start verdi







**Sentyabrın 18-də SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin (TTSİ) Sumqayıt Təlim-Tədris Mərkəzində yeni tədris ilinin başlanması münasibətilə tədbir keçirildi.**

Tədbirdə SOCAR-ın "Azərikimya" İstehsalat Birliyinin baş direktoru İmran Arzumanzadə, Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov və KİV nümayəndələri iştirak edirdilər.













Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Mərasimdə çıxış edən Sumqayıt Təlim-Tədris Mərkəzinin direktoru Rəşad Dadaşov bildirdi ki, mərkəz "Azərikimya" İB-nin və Sumqayıt şəhərində yerləşən digər müəssisələrin kadr hazırlığına olan tələbatını ödəyir: "2019-2020 tədris ilində Sumqayıt Təlim-Tədris Mərkəzində "Yeni fəhlə kadrlarının hazırlanması" proqramı daxilində 7 peşə üzrə 8 qrupda təhsil alacaq 111 nəfər dinləyici Yaponiyanın "Yokogawa Electric Corporation" şirkətinin dəstəyi ilə qurulmuş müasir avtomatik idarəetmə sistemləri üzrə təlim otağından, o cümlədən zəruri tədris vəsaitlərindən və resurslarından istifadə etmək imkanına malik olacaqlar. Mərkəzin təlim avadanlıqları, proqram təminatı, CENTUM və ProSafe sistemləri təlimlərin keçirilməsi üçün nəzərdə tutulur."

Tədbirdə çıxış edən "Azərikimya" İstehsalat Birliyinin baş direktoru İmran Arzumanzadə peşəkar kadrların hazırlanmasında SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rolunu xüsusu vurğuladı, son dövrlərdə ölkəmizdə peşə təhsilinin getdikcə artan əhəmiyyətindən danışaraq dinləyicilərə uğurlar arzuladı.

Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov qeyd etdi ki, ölkə iqtisadiyyatının gücləndirilməsində və şaxələndirilməsində özünəməxsus rol oynayan SOCAR tərəfindən neft, qaz və neft-kimya sənayesində kadr potensialının möhkəmləndirilməsi, müəssisələrdə beynəlxalq standartlar əsasında peşə fəaliyyətinin yüksək səviyyədə təşkili, habelə sənayedə ixtisaslı fəhlə-texnik kadrlarının hazırlanması üçün SOCAR-ın birbaşa tabeliyində Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi yaradılıb. Hazırda TTSİ-nin tərkibində 5 təlim mərkəzi fəaliyyət göstərir: "Beş təlim mərkəzindən, qaynaq sexlərindən və sınaq laboratoriyalarından ibarət olmaqla, İdarə ixtisaslı fəhlə kadrlarının hazırlanması və mühəndis-texniki işçilər üçün əsasən 2 istiqamətdə kadr hazırlığı işini təşkil edir. Bu təlim mərkəzlərində təhsil alan dinləyicilərə aylıq təqaüdün verilməsi, gündəlik naharın və xüsusi geyim formalarının təmin edilməsi, eləcə də SOCAR-ın müəssisələrində istehsalat təcrübəsinin təşkili digər təlim qurumları ilə müqayisədə üstün cəhətlər hesab olunur. Hazırkı dövrədək Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsi üzrə 113747 nəfər dinləyici və şagird təlim mərkəzlərində ayrı-ayrı istiqamətlərdə təlim kurslarına cəlb edilib və onların peşə bacarığı yoxlanılıb. 2005-2019-cu illər üzrə İdarə daxilində "Yeni fəhlə kadrlarının hazırlanması" proqramını başa vurmuş şagirdlərin sayı 2570 nəfər olub."

Çıxışının sonunda F.Süleymanov dinləyicilərə uğurlar arzuladı, onlara yaradılan şəraitdən maksimum dərəcədə bəhrələnməyi tövsiyə etdi.

Yeni qəbul olunan şagirdlər adından çıxış edən Esmira Şirinova ilk öncə onlar üçün yaradılan şəraitə, diqqətə və qayğıya görə dövlətimizə və SOCAR-ın rəhbərliyinə öz dərin təşəkkürünü bildirdi və bütün şagirdlər adından tədris prosesində yüksək nailiyyətlər əldə edəcəklərinə söz verdi.

Sonda 2018-2019-cu tədris ilində təlim mərkəzində müxtəlif peşələrə yiyələnmiş 92 nəfər məzuna sertifikatlar təqdim edildi.

Tədbirdən sonra Sumqayıt Təlim-Tədris Mərkəzinin direktoru Rəşad Dadaşov Mərkəzdə təlim keçən şagirdlərlə görüşdü, onlara tədris ilində uğurlar arzuladı.

**Orxan Vahidoğlu,**
**Samir Paşayev (foto),**
***"İki sahil"***

### Siyavuş Novruzov:

# “Əsrin müqaviləsi” Heydər Əliyevin Azərbaycan xalqı qarşısında tarixi xidmətidir



“Ümumiyyətlə, “Əsrin müqaviləsi” çox möhtəşəm layihədir. Artıq 25 ildir ki, “Əsrin müqaviləsi” imzalanıb. Əgər biz həmin dövrə nəzər salsaq görərik ki, o zaman Azərbaycanda ictimai-siyasi vəziyyət çox ağır idi. İlk növbədə Azərbaycanda hərbi müxalifət fəaliyyət göstərirdi, ölkədə hərc-mərclik var idi, separatçılıq hökm sürürdü”. Bunu Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov deyib.

YAP İcra katibinin müavini bildirib ki, vaxtilə “Əsrin müqaviləsi” imzalanandan sonra bir neçə dəfə dövlət çevrilişlərinə cəhdlər olundu: “Lakin buna baxmayaraq ümummilli lider Heydər Əliyevin iradəsi və Ona olan dünya ölkələrinin etimadı sayəsində ən iri dövlətlər və şirkətlər Azərbaycanla bu müqaviləni imzaladı. Hətta Amerika kimi bir dövlət bu müqavilənin qarantı rolunda çıxış etdi. Nəticə etibarilə 25 il ərzində digər dövlətlərin yüz ilə keçdiyi yolu məhz Azərbaycan dövləti “Əsrin müqaviləsi”nin əldə etdiyi nəticələr hesabına əldə etdi. Bu müqavilədən irəli gələn öhdəliklər və bu müqavilənin tam yerinə yetirilməsi nəticəsində Azərbaycanın nəqliyyat dəhlizinə çevrilməsi, Azərbaycandan digər ölkələrə enerji resurslarının daşınması kimi böyük irəliləyişlər hər bir kəsin gözü önündədir.

Bu gün Azərbaycanda 3 mindən artıq məktəb tikilib, yollar çəkilib, körpülər salınıb, 600-dən artıq diaqnostika mərkəzləri, xəstəxanalar tikilib, 40-dan artıq isə Olimpiya Kompleksləri və digər idman meydançaları tikilib istifadəyə verilib. Eləcə də sosial sahədə xeyli inkişaf mövcuddur. Bu gün xeyli sayda tələbələrimiz bu “Əsrin müqaviləsi” sayəsində xaricdə təhsil alıb və Azərbaycana qayıdaraq mütəxəssis kimi çalışırlar. Azərbaycanda abadlıq, quruculuq işləri geniş vüsət alıb. Amma görürsən ki, bəziləri bu müqaviləni xülya adlandırırdı, imzalanmasını istəmirdilər və gələcəyə saxlayırdılar. Gələcək isə göstərdi ki, ayrı-ayrı dövlətlərdə, ərəb və digər başqa-başqa ölkələrdə nəticə hansı effekti verdi. Yeni neft strategiyasından düzgün istifadə etməmək həmin ölkələrə belə gətirdi. Lakin Ümummilli Liderin düzgün qoyduğu strategiya və Prezidentimiz tərəfindən həyata keçirilən bu strategiya artıq Azərbaycan xalqının maraqlarına xidmət edir, ölkəmizə kifayət qədər gəlirlər gətirir. Məhz bunun nəticəsində neft kapitalı Azərbaycanda insan kapitalına çevrilib”.

# “Əsrin müqaviləsi”nin 25 illiyi ilə bağlı keçirilən müsabiqənin qalibləri mükafatlandırılıb












**Sentyabrın 18-də Azərbaycan Mətbuat Şurasının və “SOCAR-AQŞ” MMC-nin “Əsrin müqaviləsi”nin 25 illiyi ilə bağlı keçirdikləri yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə “SOCAR-AQŞ” MMC-nin fəaliyyətinə dair videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən “SOCAR-AQŞ” MMC-nin baş direktoru Ramin İsayev şirkətin gördüyü işlərdən danışıb. Bildirib ki, qazma tarixində bir sıra uğurlara və yeniliklərə imza atan şirkətin əsas missiyalarından biri Azərbaycanın hüdudlarından kənarda da ölkəmizi təmsil etməkdir.

Şirkətin mətbuat xidmətinin rəhbəri Sənubər Nəzərova yazı müsabiqəsi barədə ətraflı məlumat verib.

“İki sahil” qəzetinin baş redaktoru, Mətbuat Şurasının idarə heyətinin üzvü Vüqar Rəhimzadə “Əsrin müqaviləsi”nin tarixi əhəmiyyəti barədə danışıb. O, bu günün təkcə neftçilər üçün deyil, bütün vətəndaşlarımız üçün əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra qaliblər mükafatlandırılıb.

Qaliblər arasında AZƏRTAC-ın əməkdaşları da var.

Daha sonra tələbə təqaüdləri təqdim edilib.

Tədbir bədii hissə ilə davam edib.

## Taleh Şahsuvarlıdan hüquq mühafizə orqanlarının rəhbərlərinə Aslan İsmayılovla bağlı

## M Ü R A C İ Ə T



Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalıdır.

AzNews.az xəbər portalının baş redaktoru Taleh Şahsuvarlı üç dövlət qurumuna sosial media hesabı vasitəsilə müraciət edib.

AzNews.az T.Şahsuvarlının müraciətini təqdim edir:

“Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov cənablarına!

Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov cənablarına!

Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Əli Nağıyev cənablarına!

Hörmətli Baş prokuror!

Hörmətli Nazir!

Hörmətli DTX rəisi!

Mən, Şahsuvarov Taleh Novruz oğlu 1995-ci ildən etibarən jurnalistika sahəsində fəaliyyət göstərirəm. Hazırda Azərbaycanda ən oxunaqlı saytlardan biri olan AzNews.az xəbər portalının rəhbəriyəm. Portalımız Azərbaycan Prezidenti İlham Əliyevin siyasi kursunu ardıcıl müdafiə edən informasiya resurslarından biridir və kollektivimiz öz fəaliyyətində hər zaman milli maraqlarımızı ön planda tutur. Sizə müraciət etməkdə məqsədim diqqətinizi milli maraqlarımıza, ərazi bütövlüyümüzə və dövlət təhlükəsizliyimizə birbaşa təhdid yaradan olduqca önəmli bir fakta cəlb etməkdir.

Vaxtilə Azərbaycanda vəkillik fəaliyyəti ilə məşğul olmuş, fəaliyyətində yol verdiyi nöqsanlara görə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlüyündən xaric edilmiş Aslan İsmayılov bu günlərdə öz “Facebook” səhifəsində bir məlumat paylaşdı. Həmin məlumatda bildirilirdi ki, Gürcüstanda “Yeni Liderlər Təşəbbüsü” adlı bir layihə həyata keçirilir və həmin layihənin rəhbəri Kristina Puşau adlı ABŞ vətəndaşı, Azərbaycan üzrə koordinatoru Ziyəddin Aslan oğlu İsmayılovdur. Bu layihə ilə bağlı müxtəlif kütləvi informasiya vasitələrində məlumatlar dərc olunub. O cümlədən Aslan İsmayılovun oğlu Ziyəddin İsmayılov da sosial şəbəkədə Kristina Puşau ilə birgə çəkilmiş şəkillərini paylaşaraq layihədə koordinator olaraq iştirak etdiyini təsdiqləyib.

Mən bu barədə jurnalist araşdırması apardım və məlum oldu ki, layihənin rəhbəri Kristina Puşau 2012-ci ildə ABŞ-ın Los-Anceles şəhərində yerləşən Cənubi Kaliforniya Universitetinin bakalavr pilləsini bitirib. Kristina Puşau orada təhsil alarkən universitetdəki Erməni Tələbələr Assosiasiyasının rəhbəri olub. Cənubi Kaliforniya Universiteti Erməni Tələbələr Assosiasiyasının “Facebook” səhifəsi mövcuddur. Bu səhifəyə göz gəzdirdikdə məlum olur ki, həm Kristina Puşaunun rəhbəri olduğu müddətdə, həm də ondan sonra təşkilat Azərbaycan və Türkiyə əleyhinə bir sıra aksiyalar təşkil edib. Həmin təşkilat ABŞ-dakı erməni diasporunun beyin mərkəzi olan Erməni Araşdırmalar İnstitutu ilə sıx əməkdaşlıq etməklə qondarma “erməni genosidi” ilə bağlı universitetdə çox sayda tədbirlər keçirib, o cümlədən 2016-cı ildəki “Aprel döyüşləri”ndə Azərbaycana qarşı açıq təbliğat aparıb.

Odur ki, Cənubi Kaliforniya Universitetindəki Erməni Tələbə Assosiasiyasına rəhbərlik etmiş şəxs olaraq Kristina Puşaunun həyata keçirdiyi layihənin rəsmi məqsədi nə olursa-olsun, mahiyyətcə Azərbaycan Respublikasının milli maraqlarına, dövlət təhlükəsizliyinə və ərazi bütövlüyünə zidd olduğu aşkardır. Maliyyə qaynaqları qaranlıq olan bu layihənin ABŞ-dakı erməni diasporunun maraqlarına xidmət etməsi, o cümlədən Ermənistanın xüsusi xidmət orqanlarının dəstəyi ilə reallaşdığını da təxmin etmək çətin deyil.

Bütün hallarda hesab edirəm ki, Aslan İsmayılovun və onun oğlunun Kristina Paşuanın timsalında erməni diasporu ilə açıq və təkzibolunmaz əlaqələri müvafiq dövlət orqanları tərəfindən araşdırılmalı və bu barədə cəmiyyətə rəsmi açıqlama verilməlidir.

Araşdırma üçün mənə məlum olan və saytımızda yayınlanmış faktları qaynaqları ilə birgə yüksək diqqətinizə təqdim edirəm:

https://www.aznews.az/news/political_debate/238330.html

Hörmətlə,

**Taleh Şahsuvarlı**

AzNews.az xəbər portalının baş redaktoru”.

# ARİF MƏMMƏDOV XƏYANƏT VƏ SATQINLIQ NÜMUNƏSİDİR



**Azərbaycan xalqının mentalitetində satqınlıq və xəyanət qəbul olunmayan hadisədir. Real həyatda, söz və fikir yaddaşımızda, tarixi hafizəmizin dərinliyindəki hadisələrdə belə xəyanət və satqınlıq ən ağır əməl, cəzası isə çox ağır olan bir hal kimi qəbul edilir. Xəyanətin və satqınlığın ömrü az olduğu kimi, onu həyata keçirənlərin də ifşası hər zaman mütləq xarakter daşıyır.**

Xüsusilə də bu xəyanət və satqınlıq dövlətə, xalqa, dövlətçiliyə, insanların rifahı və təhlükəsizliyinə qarşı çevrilirsə, bu cür əməllər və onun icraçıları nəinki ifşa olunmalı, hətta vaxtında layiqli ictimai cavabla qarşılaşmalıdır. Elə uzun müddət Azərbaycan dövlətinin çörəyini yemiş, sonra da ölkəsinə və xalqına qarşı düşmənlərlə eyni cəbhədə yer alan, Avropada oturub dövlətimizin əleyhinə iftiralar atan keçmiş səfir Arif Məmmədov da bu mənada istisna təşkil etməməlidir.

Kimdir Arif Məmmədov? Bəlkə də bir çoxlarınız onu Azərbaycan dilində normal danışmağı bacarmayan, "neftayırma" əvəzinə "neftqayırma" deyən, pəltək frazalarla gah "Azərbaycan saatı"nda, gah da "Osmanqızı" kanallarında ağlına deyil, ağzına gələni danışan bir satqın kimi tanıyırsınız. Lakin istəyirəm ki, erməni bulağından su içən bu xəyanətkarın və siyasi riyakarın haqqında daha çox biləsiniz.

Arif Məmmədov kimilərin təkcə özləri deyil, onların ailə üzvləri də Azərbaycan dövlətinə və xalqına qarşı xəyanət içərisindədirlər. Arif Məmmədovun Azərbaycan xalqına və ölkəmizə nifrəti o qədər böyükdür ki, hətta 15 il müddətində Azərbaycan dövlətini təmsil edən səfir kimi işləyərkən, o, hər dəfə Bakıya gələndə "Təxminən 20 ildir Avropada normal adamların arasındayam... 3 gün Bakıda oldum və artıq qocaldım..." deyirdi.

Bu cür düşüncə təkcə Arif Məmmədova deyil, onun ailəsinin bütün üzvlərinə də aiddir. Elə Arif Məmmədovun həyat yoldaşı da Bakıya qısa səfərləri zamanı bildirirdi ki, savadsız, mədəniyyətsiz "qara" xalqın yaşadığı Azərbaycana heç vaxt qayıtmayacaq.

Arif Məmmədovun səpdiyi xəyanət və satqınlıq toxumu onun Cəmil adlı oğlundan da yan ötməyib. Lakin burada fərq ondan ibarətdir ki, Cəmilin atası və anası Azərbaycan xalqına və dövlətinə nifrət edirsə, Cəmil daha irəli gedərək irqçiliyi, antisemitizmi, əyyaşlığı təlqin edir. Satqın Arif Məmmədovun oğluna verdiyi tərbiyənin nəticəsidir ki, Cəmil Məmmədov aşkar antisemitdir, İsrailə nifrət edir və bu hisslərini gizlətmir. Atalar da yaxşı deyiblər ki, valideynin gəzdiyi ağacı, balası budaq-budaq gəzər...





Jame Mam
November 3, 2014 ·

It will take time but sooner or later Israel will face many, many criminal charges! Also, a resolution was put to the UN Security Council for a November 2017 deadline for the establishment of 2 states (Israel and Palestine) based on the boundaries that existed PRIOR to the 1967 war! And Israel's bedrock relations with the US are deteriorating... Well, this is what you get for being evil Israel, especially with your fat fuck racist leader Netanyahu!

Mogherini urged to suspend EU-Israel Association Agreement by 305 human rights groups and unions

More than 300 human rights groups, trade unions and political parties from across Europe have called for the...

ECCPALESTINE.ORG

Share

Arif Məmmədov Belçikada diplomatik missiyada olanda belə oğlu atasının çalışdığı ölkəni və oradakı xalqı aşağılayırdı. Sitat: "Sarsaq, murdar, yaramaz belçikalılar məni hirsləndirdilər! Ölkəni sarsaqlıq və axmaqlıq ikiyə bölüb. Belçikalılar o qədər irqçidirlər ki, ölkələrini Fransa, ABŞ və Çin kimi qüdrətli dövlət hesab edirlər".

"Holland və flamand dilləri ən murdar, ən eybəcər, ən iyrənc dillərdir", "İsraili lənətə gəlsin! İsrail şərdir!", "Netanyahu irqçi liderdir!", "Donald Trampın sifətinə əla şapalaq vurardım" kimi fikirlər yazan Cəmil Məmmədov həm də Əli Kərimlinin oğlu Türkel Kərimli kimi əylənməyi, kef çəkməyi çox sevir. Nə qədər etikadan kənar səslənsə də, onun sosial şəbəkə hesabında yazdıqlarından sitatlar gətirməyə məcburam: "Bu gün Audi 8-də qızlarla kef etdim", "Qızların bakirəliklərini itirdiyi anı sevirəm", "Səhərədək qızla yataqda oynadıq" və s.

Gördüyünüz kimi, Arif Məmmədov özündən də təhlükəli olan, yəhudilərə nifrət edən, İsrailin məhvini istəyən, avropalıları gerizəkalı, ABŞ prezidenti Donald Trampı "ləyaqətsiz" sayan, qızları, əyyaşlığı, əxlaqsızlığı sevdiyini deyən bir gənc yetişdirib. Məhz Cəmil Məmmədov kimi əyyaş və kütbeyin Arif Məmmədovun kimliyi haqqında bizdə əyani təsəvvür yaradır...

Belə bir ailə və oğul sahibi olan Arif Məmmədovun əmək fəaliyyəti də fərqli ola bilməzdi. Ona görə də Arif Məmmədov çalışır ki, özü haqqında müsbət imic formalaşdırsın. Amma artıq gecdir...

Bu gün Arif Məmmədov "möhtəşəm səfir fəaliyyəti" ilə bağlı cəfəngiyyatlar danışsa da, görünür, Brüsseldə dövlətin kirayə üçün ayırdığı pullarla ipoteka ilə aldığı yaşayış yerini xatırlatmağı unudur. O, eyni zamanda, şəxsi məqsədlər üçün göndərilən, lakin istifadə etməyərək satdığı lüks avtomobilləri də yaddan çıxarır. "Mersedes", "Lexus", "BMW X5" markalı maşınların saxta yollarla satışından əldə etdiyi 150 000 dolları isə yəqin ki xatırlamır.

Arif Məmmədov iddia etməyə çalışsa ki, guya onun Bakıda heç bir yaşayış yeri olmayıb və o burada valideynləri ilə birlikdə yaşayıb, o zaman ondan soruşmaq lazımdır ki, 2010-cu ildə Binəqədi rayonu, Mir Cəlal küçəsindəki mənzilini satıb, 2011-ci ildə Mərdəkanda 1 hektar sahəli ev aldığını da yaddan çıxarıbmı?



Jame Mam
December 18, 2010 ·

Ugly stupid belgians piss me off!!! a country riven by stupidness! and they're so racist actin like they're some powerful nation like France, America or China... tsst

Share



Jame Mam
February 29, 2012 ·

there are many interesting countries, but America is the greatest, God Bless the USA!!!

Share

4

Vaxt var idi ki, Arif Məmmədov ailə güzəranını yaxşılaşdırmaq, oğlunun eyş-işrət xərclərini qarşılamaq məqsədilə Azərbaycanın Avropa Şurası nəzdində nümayəndəliyinin vəsaitlərini həyasızcasına mənimsəyirdi. Ayrı-ayrı qurumların hesablarından tədbirlər üçün çıxılan vəsaitlərə görə Arif Məmmədov dəfələrlə səfirliyin 20-25 min avro pulunu bir gündə göyə sovururdu. İstər Brüsselə istərsə də Strasburqla bağlı bu cür faktlar kifayət qədərdir, lakin sizi yormaq istəməzdim.



Nahid Cəfərov
3 hrs ·

Bu statusu yazmaq mənim üçün çox çətindir. Arif Məmmədovu XIN-də tanıdım. Çox geniş çevrəsi olan, sadəliyinə görə çoxu tərəfindən sevilən bir diplomat... See More

Sosial şəbəkələrdə şoular nümayiş etdirərək, AND adlı "təlxək" təşkilatı və Ağ Qərənfillər hərəkatını yaradan Arif Məmmədov Azərbaycanın ünvanına təhqirlər yağdırır, radikal islamçı Taleh Bağırovun müdafiəsinə qalxır, radikal müxalifətçilər - Əli Kərimli və Cəmil Həsənlini yaxın dostu, AXCP sədrini isə "lider" hesab edir. Lakin bir zamanlar həmin Arif Məmmədov iclaslarda səfir kimi çıxışları zamanı onları açıq şəkildə qınayıb və avropalı diplomatlar qarşısında ifşa etdiyindən qürurlanırmış.

Arif Məmmədov və onun tərəfdaşları üçün şəxsi mənfəət, Qərbdə problemsiz yaşamaq daha üstündür. Onları azərbaycanlı qaçqınların taleyi maraqlandırmır. Ölkənin müstəqil daxili və xarici siyasəti ürəklərincə deyil, çünki onlar üçün tək müqəddəs - puldur. "Vətən üçün pis olan, mənə faydalıdır" prinsipi ilə yaşayan Arif Məmmədov kimilər şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və satqından başqa biri deyillər.

Odur ki, Arif Məmmədov Əli Kərimlidən tutmuş Sevinc Osmanqızına, Qənimət Zahidə qədər antiazərbaycan təbliğat şəbəkəsinin hər bir üzvü kimi vaxtaşırı erməni sevgisini nümayiş etdirir. Dəfələrlə şahidi olmuşuq ki, Əli Kərimli kimi, Arif Məmmədov da Paşinyanın mətbuat xidməti kimi Ermənistanı tərifləyib. Erməni sevgisini göstərən Arif Məmmədov daha irəli gedərək "erməni şəhid ailələri" ifadəsindən də istifadə edir. Erməni işğalçılarına şəhid deməklə Azərbaycan şəhidlərinin ruhuna və ailələrinə hörmətsizlik edən Arif Məmmədov bir daha sıralarında durduğu qrupun Azərbaycan xalqına olan düşmən münasibətini sərgiləyir.



Arif Mammadov
12 mins ·

BİRİNCİ ŞƏKİLDƏN SONRA İKİNCİ ŞƏKİLDƏKİLƏR KLOUNLARA BƏNZƏYİR.

O vaxta kimi ki Cıdır Düzündə ermənilər rəqs edərək Şuşanın işğalını qeyd edir, yalnız Milli Məclis deyil, ordu da, bütöv ölkə də bir "Lazım gəlsə" sirkinə bənzəyir.

Popkorn nuş olsun.

Azərbaycan əsgərinə "kloun" deyən, idmançılarımızı isə meşədən çıxmış heyvana bənzədən Arif Məmmədov şərəfsizliyinin son həddində olduğunu dəfələrlə nümayiş etdirib.

Gördüyünüz kimi, bu da "Milli Şura"nın və AXCP-nin ətrafına topladığı "mədəni demokratlardan" biri. Xaricdə işlədiyi müddətdə mühasibatlıq sənədlərini saxtalaşdıraraq büdcə xərclərini mənimsəyən, bu vəsaitlərə Brüsseldə ev və maşınlar alan Arif Məmmədov bu gün özünü "vicdanlı adam" kimi qələmə verir. Bu pullar hesabına onun oğlu ABŞ-da təhsil alır. Hərbi xidmət yaşına çatmasına baxmayaraq, o, Azərbaycan Ordusunda xidmət etməyə tələsmir. Bütün bu illər ərzində Məmmədovun ailə üzvləri bir dəfə də Bakıya gəlməyiblər. Həyatının 24 ilini ailəsilə birlikdə xaricdə yaşayan və ölkədə az müddətdə olan Arif Məmmədov Azərbaycanın bugünkü vəziyyətini necə "dərin təhlil" edə bilər? İstirahət zamanı belə o, Azərbaycanda bir həftədən çox yaşamayıb.

İndi siz deyin, "3 gün Bakıda oldum və artıq qocaldım" söyləyən Arif Məmmədov kimilər hakimiyyətə gəlsələr, insanlara münasibətləri necə olacaq? Vətəndaşları meşələrdə yaşamağa məcburmu edəcəklər? Üstəlik də, Əli Kərimli hakimiyyətə gələcəyi təqdirdə danışığını bilməyən bu başabəla diplomata xarici işlər naziri vəzifəsini söz verib...

**P.S. Arif Məmmədov eyni zamanda, dostuna xəyanət edəndir. "Oyan" hərəkatından Nahid Cəfərov dələduz Fikrət Hüseynlinin agent ittihamı ilə qarşılaşanda, eləcə də "Milli Şura"nın sədri Cəmil Həsənli də onun agent olduğunu yazanda Arif Məmmədov nəinki bunlara etiraz edib, hətta, həmin statusları bəyənib. Bu vəziyyətdən peşman olduğunu və giley-güzar etdiyini ifadə edən Nahid Cəfərov Arif Məmmədovu siravi, orta təhsilli cəbhə trolu adlandırıb...**

**Ramil Vəlibəyov,**
YAP Nizami RT GB sədrinin müavini,
siyasi elmlər üzrə fəlsəfə doktoru

# YAP Masallı rayon təşkilatında görüş



Ötən gün Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı aparatında rayonun ərazi ilk partiya təşkilat sədrlərinin iştirakı ilə görüş keçirilib. Tədbirin bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar olduğunu bildirən YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, hər seçkilərdə olduğu kimi, bu siyasi kampaniyaya da YAP tam ciddi şəkildə hazırlaşacaq. S. Əliyev bələdiyyə seçkilərinə hazırlıq işlərinin yüksək səviyyədə qurulacağını, YAP Masallı rayon təşkilatının inzibati binasında seçki qərargahının yaradılacağını və bu işlərdə ərazi ilk partiya təşkilatlarının səfərbər olunmasının vacibliyini qeyd edib. Seçki məntəqələrində məşvərətçi və müşahidəçilərin seçilməsi istiqamətində işlərə başlanıldığını söyləyən sədr namizədlərin müəyyən olunmasında partiya sıralarında xüsusi fəallıq göstərən gənclərə və qadınlara üstünlük veriləcəyini diqqətə çatdırıb: "Seçkilərə hazırlıqla əlaqədar YAP İcra Katibliyi tərəfindən müəyyən tövsiyə və tapşırıqlar verilib. Partiyanın Masallı rayon təşkilatı da bu tövsiyə və tapşırıqlara, qəbul olunmuş müvafiq qərarlara uyğun addımlar atacaq".

Görüşdə ərazi ilk partiya təşkilatlarının fəaliyyətindən də bəhs edilib. Onlara təşkilatların tərkibi, uçot-dəqiqləşdirməsi, təbliğat-təşviqat işlərinin aparılması və sair istiqamətlərdə işlərin bundan sonra da uğurla və səmərəli şəkildə davam etdirilməsi tövsiyə edilib. S.Əliyev bildirib ki, hər bir azərbaycanlı dövlət başçısının ətrafında daha da sıx birləşməli, ölkəmizin uğurlarını, inkişafını gözü götürməyən qüvvələrə qarşı daim mübariz olmalıdır: "Bu baxımdan ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasi fəaliyyətini, təbliğatını həyata keçirən siyasi partiya olaraq YAP-ın və onun ərazi ilk partiya təşkilatlarının üzərinə böyük məsuliyyət düşür. Mən sizin hər birinizi bu istiqamətdə daha fəal olmağa çağırıram. Seçkilər yaxınlaşdıqca Azərbaycanın inkişafını istəməyən qüvvələr dövlətimizə qarşı qarayaxma kampaniyası apararaq ictimaiyyətdə çaşqınlıq yaratmağa çalışırlar. Azərbaycan gücləndikcə daxildəki "5-ci kolon" və xaricdəki mühacirlər adı ilə fəaliyyət göstərən satqınlar ölkəmizə qarşı şər-böhtan kampaniyasına başlayırlar. Onlar xaricdəki anti-Azərbaycan mərkəzlərin sifarişlərini yerinə yetirərək alətə çevrilirlər".

Təşkilat sədri bildirib ki, bütün bunlara baxmayaraq anti-Azərbaycan dairələr məyus olacaqlar: "Çünki Azərbaycan cəmiyyəti yetkin və intellektual cəmiyyətdir. Bu cəmiyyət həmin dairələrin əməllərini qətiyyətlə pisləyir, onların avantürist çağırışlarına hər zaman "yox" deyir".

**Taleh Bağırov,**
***"İki sahil"***

# "Palçıq vulkanizmi və karbohidrogen sistemləri"



12-16 sentyabr 2019-cu il tarixlərində AMEA-nın Neft və Qaz İnstitutunda "Palçıq vulkanizmi və karbohidrogen sistemləri" beşgünlük Azərbaycan Beynəlxalq Məktəb-seminarı keçirilib. Məktəb-seminar HOTMUD layihəsinin maliyyə dəstəyi ilə AMEA-nın Neft və Qaz İnstitutu, Oslo Universitetindəki Təkamül və Yer Dinamikası Mərkəzi və M.V. Lomonosov adına Moskva Dövlət Universiteti arasında imzalanmış əməkdaşlıq haqqında üçtərəfli saziş çərçivəsində keçirilib. Məktəb-seminarın təşəbbüskarı və əsas təşkilatçıları AMEA-nın vitse-prezidenti, Neft və Qaz İnstitutunun direktoru, akademik İbrahim Quliyev, Oslo Universitetinin Təkamül və Yer Dinamikası Mərkəzinin üzvü, fəlsəfə doktoru Adriano Mazzini və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Geologiya və Geokimya kafedrasının dosenti, Geologiya və mineralogiya elmləri namizədi Qriqori Axmanovdur.

Açılışda tədbir iştirakçıları və qonaqları salamlayan Neft və Qaz İnstitutunun elmi katibi, Yer Elmləri üzrə fəlsəfə doktoru Şəlalə Hüseynova çıxış edərək, tədbirin ilk gününə təyin edilmiş elmi sessiyani başlatdı. Elmi iclas zamanı Yer kürəsinin müxtəlif bölgələrinin, o cümlədən Azərbaycanın palçıq vulkanları, karbohidrogen yataqları ilə əlaqəsi və Yerin geodinamikası, xüsusən seysmiklik, litosfer plitələrinin tektonikası və mantiya diapirizmi ilə bağlı bir neçə məruzə dinlənildi.

Məktəb-seminar bir tədqiqat və təhsil xarakteri daşıyır və əsas məqsədi yeni nəsil alimlərini yetişdirməkdir. Məktəb-seminar ikinci dəfədir ki, keçirilir. Belə tədbir 2018-ci ilin avqust ayında da uğurla keçirilib. Bu il isə həm iştirakçılarının sayı artıb, həm də tədbirin coğrafiyası genişlənib. Builki məktəb-seminarda 6 ölkədən (Norveç, Almaniya, Rusiya, ABŞ, İtaliya, Çexiya) 23 iştirakçı, o cümlədən elm adamları, təcrübəli mütəxəssislər, doktorantlar və magistrantlar iştirak etdi. Azərbaycan tərəfini Neft və Qaz İnstitutunun, Geologiya və Geofizika İnstitutunun, Coğrafiya İnstitutunun, Respublika Seysmoloji Xidmət Mərkəzinin və AMEA-nın Strateji Elmi Tədqiqatlar Mərkəzinin alim və magistr tələbələri təmsil etmişlər.

Məktəb-seminar çərçivəsində dörd günlük çöl ekspedisiyası aparılmışdır.

*Nuhəli Kərimov:*

# Əli Kərimli öz şərəf və ləyaqətini pula satır

"Əli Kərimlinin apardığı antimilli siyasəti Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti kimi qiymətləndirirəm. İstəyirəm ki, Əli Kərimli və onun havadarları Azərbaycan xalqının xoşbəxtliyinə təhlükə yarada biləcək məkrli siyasətlərindən əl çəksinlər. Hər kəs etiraf etməyi bacarmalıdır. Açıqlığı ilə etiraf edirəm ki, Əli Kərimlidən siyasi xadim, dövlət xadimi olmayıb və olmayacaq. O, həmişə məğlubiyyətə düçar olan bir şəxs olub. Azərbaycan xalqı onun bu Vətən üçün nə qədər yararsız olduğunu görür və bilir. Ona görə də onun çağırışına, müraciətinə əhəmiyyət verən yoxdur. Bu insanın öz şəxsi mənafeyi naminə ermənıyə "dayı" dediyi artıq ortadadır".

Bu fikirləri İkisahil.TV-yə açıqlamasında "Azərbaycan fermeri" qəzetinin baş redaktoru Nuhəli Kərimov bildirdi.

Nuhəli Kərimov qeyd etdi ki, çox təəssüf ki, bu antimilli ünsür mənim əmim oğludur. Ə. Kərimli ilə bir kökdən yaranmağımıza baxmayaraq mən və mənim bütün əzizlərim Əli Kərimlinin apardığı iyrənc siyasətə "yox" deyirik. Çünki hamımız yaxşı bilirik ki, bu xain qrant şəklində aldığı çirkli pullar hesabına şəxsi maraqlarını reallaşdırır. Yüksək məbləğdə qrantları mənimsəmək üçün isə bacardığı qədər ermənipərəst qüvvələrlə əlaqə yaradır. Hesab edirəm ki, onun siyasəti uğursuzdur və o, davamlı olaraq uğursuzluq içərisində batır. AXCP deyilən partiyada bir zamanlar tanınmış simalar var idi. İndi isə onların heç biri yoxdur. Bütün



bunlar Əli Kərimlinin uğursuz siyasətinin nəticəsidir. Bir partiyanı idarə edə bilməyən Əli Kərimli böyük iddialardadır. Bu, çox gülməlidir. Kərimlilər nəslinin ağsaqqalı mənəm. Hər zaman Əli Kərimliyə bacardığı işin dalınca getməyi tövsiyə etmişəm. Bildirmişəm ki, onun fəaliyyəti heç klub müdiri olmağa yaramır, nəinki böyük iddialar ola.

N.Kərimov onu da bildirdi ki, Ə. Kərimli kimilərin məqsədləri yalnız öz şəxsi mənafeləridir. Ölkəni şəxsi məqsədlərinə qurban vermək istəyirlər. Hesab edirəm ki, bu gün hər bir azərbaycanlı xalqımızın birliyinə çalışmalıdır.

N.Kərimov vurğuladı ki, çirkab içində olan Ə.Kərimli sosial şəbəkələrdə trolları vasitəsilə xalqın adət-ənənəsini, milli dəyərlərini təhqir edir. Bu gədə-güdələr sosial şəbəkələri söyüş məkanına çeviriblər: "Artıq sübuta yetirilib ki, Ə.Kərimlinin çoxsaylı saxta profilləri var. Bu saxta profillər vasitəsilə o, insanları təhqir edir. Qətiyyətlə demək olar ki, sosial şəbəkələrə saxta profillər ənənəsini Ə.Kərimli gətirib. Bu insan öz şərəfini və ləyaqətini pula satır. Artıq o AXCP adlı oyuncaq qurumu siyasi bir mübarizə metodu deyil, şəxsi obyekti kimi istifadə edir. Həm də siyasətə gəlir mənbəyi kimi baxır. Təbii ki, bu gün ölkəmizdə mövcud olan sabitliyin pozulması Azərbaycanın dağıdıcı müxalifətinə və xarici qüvvələrə lazımdır. Ə.Kərimli və onun kimi radikal müxalif partiya sədrləri xarici kəşfiyyatın əlaltısı olmağa üstünlük verir və müxtəlif iyrənc vasitələrlə mövcud ictimai-siyasi sabitliyi öz maddi maraqları naminə pozmağa cəhd edirlər."

Nuhəli Kərimov xüsusi olaraq vurğuladı ki, Əli Kərimlinin yaramaz əməllərinin Kərimovlar nəslinə heç bir aidiyyəti yoxdur: "Bu gün Azərbaycanda xalqın partiyası olan Yeni Azərbaycan Partiyasından başqa bu gücə və imkana malik partiya yoxdur. Düşünmürəm ki, uzun illər bundan sonra da YAP-a alternativ ola biləcək təşkilat olsun. Azərbaycanın bu günü və sabahı, xoşbəxt və firavan həyatı ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə aparılan müdrik siyasətlə bağlıdır."

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Vətənin Qorxmaz oğlu



Xalqımızın dəyərli övladı olan Qorxmaz Gülhəsən oğlu Rəhimov mərdliyi, əyilməzliyi ilə özünə yaxşı ad qoydu.

Qorxmaz Rəhimov 1977-ci ildə Lerik rayonunun Cəngəmiran kəndində təvəllüd tapır. Əsl azərbaycanlı adət-ənənələri üzərində qərar tutan saf ailə mühitində aldığı tərbiyə onu yalnız yaxşı işlərə doğru yönəldir.

Vətən qarşısında borcunu yerinə yetirməkdən ötrü Gədəbəy rayonunda xidmətə başlayır. İlk gündən nümunəvi xidməti ona hörmət qazandırır. Vacib məqamda ölümün üzünə dik baxmaqla Vətənə ürəkdən sadiq bir oğul olduğunu sübut edir. İgid, cəsur əsgərin hər döyüşü torpağa qələbə gətirir. 1998-ci ilin mart ayında Qorxmaz çəkinmədən canından artıq sevdiyi Vətən naminə sinəsini düşmən gülləsinin qabağına verir. Vətən oğlu ölməzliyə qovuşur.

Lerik camaatı hər yerdə, həmişə Qorxmazı qeyrət, qürur, torpağa sədaqət rəmzi kimi xatırlayır...

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

## *Prezident təqaüdçüsü:*

# Çalışacağam ki, mənə bəslənən ümidləri doğruldum



**Xəbər verildiyi kimi, ölkə başçısı İlham Əliyev "2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" Sərəncam imzalayıb. Həmin Sərəncamla Prezident təqaüdünə layiq görülənlərdən biri də Qurbanov Əhməd İlham oğludur. O, II ixtisas qrupu üzrə 668 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) maliyyə fakültəsinə qəbul olunub. Məlumat üçün bildirək ki, Əhməd Qurbanov Ucarda anadan olub. Bakı şəhərindəki 82 saylı tam orta məktəbdə təhsil alıb.**

Prezident təqaüdünə layiq görülməsinin sevincini "İki sahil" qəzeti ilə bölüşən Əhməd Qurbanov bildirdi ki, Sərəncamda 102 tələbənin siyahısında adımı görəndə çox sevindim: "Sözün düzü, mən bir zamanlar Prezident təqaüdü alanlara həsəd aparardım. Amma indi mən də onlardan biriyəm. Bundan böyük sevinc ola bilərmi? Onu da deyim ki, Prezidentimizin "2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında" 9 sentyabr tarixli Sərəncamı dövlətimizin biz gənclərə göstərdiyi qayğı və etimadın əyani təzahürüdür. Şübhəsiz, bu, daha yaxşı təhsil almağımıza böyük stimuldur. Elə buna görə də Prezidentimizə minnətdarlığımı bildirirəm".

Müsahibimiz, həmçinin qeyd etdi ki, o bu diqqətə əməli fəaliyyətimlə cavab verəcəyəm: "Çalışacağam ki, ali təhsilimi uğurla davam etdirim, mənə bəslənən ümidləri doğruldum. Ən əsası isə yüksək ixtisaslı kadr kimi yetişim. Bu mənada, mən həmişə ehtiyac duyulacaq bir kadr olmaq istəyirəm".

Müsahibimizin dediyinə görə, o, politologiyaya, beynəlxalq münasibətlərə, hətta rejissorluğa daha çox meyilli olub: "Hətta hekayələr də yazırdım. Amma sonradan texniki fənlərə üstünlük verdim. Yeri gəlmişkən, həmin hekayələri nə vaxtsa kitab halına da salmaq istəyirəm. Azərbaycan İqtisad Universitetini seçməyimə gəldikdə isə bunları deyə bilərəm. Düzünü desəm, fikrimdə digər universitetlər, o cümlədən Xəzər Universiteti də vardı. Lakin son anda Azərbaycan İqtisad Universitetini seçdim. Bilirsinizmi niyə? Bu təhsil ocağının regionun ən böyük iqtisadyönümlü universiteti olması, üstəlik beynəlxalq əlaqələri, təqaüd proqramları diqqətimi daha çox çəkdi. Yeri gəlmişkən, mən burada ingilis dilində təhsil alacağam. Bu dili daha dərindən mənimsəmək məqsədilə bir neçə xarici ölkəyə də səfər etmək niyyətindəyəm".

Tələbə daha sonra bildirdi ki, yüksək bal toplamasında məktəblə yanaşı, ailə mühitim də önəmli rol oynayıb: "Atam mühəndis, anam isə musiqi müəlliməsidir. Onlar da mənə dünyagörüşümün formalaşmasına, təhsildə uğurlar qazanmağıma həmişə dəstək olublar. Bu mənada deyərdim ki, valideynlərim də müəllimlərim olublar. Ümumiyyətlə, müşahidələrimə əsasən deyə bilərəm ki, təhsil məsələsində valideyn diqqəti öz sözünü deyir. Şübhəsiz, bu uğuruma görə müəllimlərimə də təşəkkürlərimi bildirirəm"

✍ **Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

## *Məzahir Məmmədov:*

# Prezident təqaüdü ilə oxuyacağım üçün çox sevincliyəm

**İkisahil.TV-nin bugünkü qonağı yüksək bal toplayaraq Bakı Ali Neft Məktəbinin tələbəsi olan Məzahir Məmmədovdur**




Son illər ölkədə təhsilin inkişafı istiqamətində geniş tədbirlər həyata keçirilir. Respublikamızın bütün bölgələrində təhsilin məzmununun müasir tələblərə uyğunlaşdırılması üçün ardıcıl və məqsədyönlü iş aparılır. Bu il Prezident təqaüdünə layiq görülən birinci kurs tələbələri respublikanın 27 müxtəlif şəhər və rayonlarını təmsil edirlər. Təqaüdçülərin demək olar ki, yarısı regionlarda fəaliyyət göstərən məktəblərin, 47 nəfəri isə Bakı məktəblərinin payına düşüb.

***- Məzahir, bir çox şagirdlər imtahanların çətin, dərs yükünün isə ağır olduğunu bildirirlər. Sən bu ağırlığın öhdəsindən necə gəldin?***

- Çox rahatlıqla. Hazırlıq müddətində diqqətimi ancaq müəllimə yönəldirdim. Mən hazırlıqdan çıxdıqda artıq dərslərə hazır vəziyyətdə olurdum. Evdə elə əziyyət çəkmirdim. Ancaq verilən dərsləri təkrarlayırdım. Demək olar ki, dərs oxuyuram deyib özümə heç bir qadağa da qoymamışam. Bədii əsərlər də mütaliyə etmişəm, kinolara da baxmışam, yaşıdlarımla şəhərə gəzməyə də çıxmışam.

***- İmtahan nəticələrin ailəndə necə qarşılandı?***

- Valideynlərim böyük sevinc hissi keçirdilər. 683 bal az deyildi. Ancaq özüm bundan da çox gözləyirdim. Üç səhv cavabım məni bir az məyus etdi. Ancaq istədiyim ixtisasa da, Prezident təqaüdünə də layiq görüldüm. Demək olar ki, hazırlıq kursu keçdiyim zaman da valideynlərimə maddi əziyyət verməmişəm. İmtahan verib 100 faizlik yüksək nəticə göstərərək "Kaspi" hazırlıq kurslarında ödənişsiz təhsil almışam. İndi isə Prezident təqaüdü ilə oxuyacağıma görə çox sevinirəm. Təhsilimiz günü-gündən inkişaf edir. Bu inkişaf biz tələbələri çox sevindirir. Hesab edirəm ki, yenə də valideynlərim rahat olacaqlar. Onların əziyyətini itirmədiyim üçün razılıqlarını bildirirlər. Valideynlərimin daim mənə qarşı yüksək diqqəti, rəğbəti və etimadı hər zaman dərslərimə ciddi yanaşmağım üçün stimul olub. Odur ki, bu kiçicik uğuruma görə valideynlərimə borcluyam.

***- Bəzi abituriyentlər var ki, imtahan zamanı çox həyəcan keçirdiklərindən çox yaxşı, əzbərdən bildikləri məlumatları unutduqlarını bildirirlər. Sən belə halla qarşılaşmadın ki?***

- Həyəcan hər zaman olur. Hardasa narahat olursan ki, birdən yaza bilmərəm. Amma cavabları yazdıqca o həyəcan keçib gedir. Çünki hər zaman sınaq imtahanlarında o qədər yüksək nəticələr göstərmişdim ki, imtahan nəticələri açıqlananda hətta deyərdim ki, məyus oldum ki, niyə 700 bal olmadı.

***- Qeyd etdin ki, hazırlıq müddətində özünə heç bir qadağalar qoymamısan. Sosial şəbəkələrdən hansından aktiv istifadə etmisən?***

- Demək olar ki, bir çoxundan. Ancaq ən çox aktiv istifadə etdiyim "Facebook" olub. Çünki qəbulla bağlı lazım olan elan və məlumatları Dövlət İmtahan Komitəsinin rəsmi internet saytından və "Facebook" səhifəsindən əldə edirdim. Elanların "Facebook" səhifəsində yerləşdirilməsi bizə çox kömək edirdi. Məlumdur ki, bu gün gənclər sosial şəbəkələrdən geniş istifadə edirlər. Ona görə yeni məlumatlardan operativ xəbər tutmaq üçün mən də DİM-in "Facebook" səhifəsini izləyirdim. Hər zaman sosial şəbəkələrdən öyrənmək üçün istifadə edirəm. Deyərdim ki, yaxşını pisdən ayırd etmək üçün sosial şəbəkələr çox yardımçı olur. Orada hər növ xarakterə rast gəlirsən. Bəlkə reallıqda o qədər insan tanıya bilməzdim.

***- Boş vaxtlarında hansı işlərlə məşğul olursan?***

- Hər zaman boş vaxtlarımı maraqlı keçirməyi bacarıram. Özümdən böyük ali təhsil alan iki bacım var. Onlarla tez-tez şəhərə gəzməyə çıxıram. Dostlarımla görüşürəm. Mütaliəni çox sevirəm. Əsasən həm dedektiv, həm də fantastik janrda olan əsərləri mütaliə edirəm. Bu mütaliələr insanın nitq və yazmaq qabiliyyətinə çox təsir edir. Bunun əyani nəticəsini imtahanlar zamanı gördüm. Mütaliəmin nəticəsində açıq suallara bədii və ətraflı cavab yaza bildim.

***- Təhsillə bağlı hansı hədəflərin var?***

- Qeyd etdiyim kimi, ailədə özümdən böyük bacılarım da ali məktəbdə oxuyurlar. Bacımın biri Azərbaycan Tibb Universitetində təhsil alır. Qərara gəlmişik ki, hər ikimiz bakalavr səviyyəsini bitirdikdən sonra təhsilimizi Almaniyada davam etdirək. Arzularımız böyükdür.

***- Məzahir, sonda ali məktəblərə hazırlaşan abituriyentlərə hansı məsləhəti verərdin?***

- Birinci məsləhətim, özlərinə heç bir qadağa qoymasınlar. Bütün yeniyetmələr necə, onlar da elə həyat tərzi keçirsinlər. Dəqiq olsunlar. Nə iş görəcəklərsə planlı etsinlər. Bir də çalışsınlar müəllim yanında hazırlıqda olan müddətdə fikirləri ancaq müəllimdə olsun. Dərsin 90 faizini orada öyrənsinlər. Evdə sadəcə təkrarlasınlar. Belə etsələr həm yorulmazlar, həm də uğur qazanarlar.

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***




# Mən ilk sırada Bakı Biznes Universitetini seçdim!

Düşünürəm ki, ali məktəbə daxil olmaq hər bir abituriyentin ən böyük arzusudur. Ali təhsil almaq üçün düzgün seçim etmək isə ən önəmli məqamlardan biridir.

Qəbul imtahanında 535 bal toplayaraq uğurlu nəticə əldə etdim və universitetləri araşdırmağa başladım. Mənim diqqətimi ən çox çəkən universitetlərdən biri də Bakı Biznes Universiteti (BBU) oldu. Universitet haqqında ətraflı məlumatlar əldə etdikdən sonra bu universitetin tələbəsi olmaq qənaətinə gəldim.

Çünki Bakı Biznes Universitetinin digər universitetlərlə müqayisədə bir çox üstünlüklərə malik olduğunu gördüm. Mənim diqqətimi çəkən məqamlardan biri universitetin beynəlxalq əlaqələrinin çox geniş olması, bir çox xarici universitetlərlə təqaüd proqramları vasitəsilə tələbə mübadiləsini həyata keçirməsidir.

Qərara gəldim ki, hələ məktəb illərindən ingilis dilinə olan marağım və iqtisadçı olmaq arzum məhz bu universitetdə reallaşa bilərdi. Həmçinin universitetin maddi-texniki bazası, müəllimlərin xaricdə təhsil alması,universitetin tələbələr üçün yaratdığı imkanlar mənə peşəkar kadr kimi yetişməyimə şərait yaradacağını əmin etdi. Universitetin məzunlarının yerli və xarici şirkətlərdə işə cəlb olunması, tələbələrin təhsillərini Avropanın qabaqcıl universitetlərində davam etdirməsi, təqaüd imkanları,tələbələrin inkişafına dəstək olunması mənim üçün əsas nüanslar oldu.

Bütün bunlar mənə əsas verdi ki, 535 balla İqtisadiyyat (ingilis dilində) ixtisasını dövlət sifarişi əsaslarla seçim. Mən bu seçimdə ilk sırada Bakı Biznes Universitetini seçdim və çox sevindirici haldır ki, artıq BBU-nun tələbəsiyəm.

Düşünürəm ki, uğurlu gələcəyim buradan başlayır. Universitet tərəfindən bu uğurlu nəticəm qiymətləndirilərək mənə və yüksək bal toplayan digər tələbələrə də LİBRAFF mağazalar şəbəkəsindən bir illik 200 manat dəyərində hədiyyə kartının təqdim edilməsi BBU-nun öz tələbələrinə olan diqqət və qayğısının bariz nümunəsidir.

✍ **Dəniz Ağaşirinov**

# N.Paşinyanın qeyri-real vədləri, saxta "proqramları" özünə və ölkəsinə qarşı çevrilir

**İşğalçı Ermənistanın baş naziri Nikol Paşinyanın yalançı vədləri bu ölkədə onsuz da ağır olan vəziyyəti daha da gərginləşdirib. İş o yerə çatıb ki, narazı kütlələr küçələrə, meydanlara çıxıb "Yalançı Nikol" şüarları səsləndirərək baş naziri əhalini aldatmaqda ittiham edirlər.**



Ermənistanın və xarici ölkələrin KİV-lərində N.Paşinyanın ölkədəki sosial-iqtisadi vəziyyətlə bağlı səsləndirdiyi fikirləri şərh edən erməni siyasi ekspertləri bildiriblər ki, N.Paşinyan da bundan əvvəlki hökumət başçıları kimi yalan vədlər verərək baş nazir postuna gəlib. Baş nazir isə bu dözülməz vəziyyətdən çıxış yolları aramaq əvəzinə problemin həll olunmamasını Ermənistanın ağır iqtisadi vəziyyəti ilə əlaqələndirməyə çalışır.

N.Paşinyanın yalançı vədləri indi Ermənistan parlamentində də müzakirə mövzusuna çevrilib. Belə ki, bir müddət əvvəl N. Paşinyanın Avropa Şurası Parlament Assambleyasının tribunasından son 10 ayda ölkədə 50 mindən çox yeni iş yerinin açıldığını bildirməsi, bunun "məxməri inqilab"ın Ermənistana "bəxş etdiyi töhfə" kimi dəyərləndirməyə çalışması parlamentdə ciddi qarşıdurmanın yaranmasına səbəb olub. "İrs" Partiyası Ermənistan Statistika Komitəsinin təqdim etdiyi sənədlərdə belə rəqəmin olmadığını və ölkədə işsizliyin tüğyan etdiyini əsas gətirərək hökumət başçısından həmin iş yerlərinin harada açıldığına aydınlıq gətirməsini tələb edib. Keçmiş prezident Serj Sarkisyanın lideri olduğu Ermənistan Respublikaçılar Partiyası da etiraz edərək N.Paşinyanı siyasi bleflə məşğul olmaqda və əhalini yalançı rəqəmlərlə aldatmaqda günahlandırıb.

Hazırda Ermənistan baş naziri Nikol Paşinyanın elan etdiyi "Ermənistan 2050-Strateji inkişaf sənədi" ölkədə ciddi müzakirə mövzusuna çevrilib. Erməni ictimaiyyəti, bütün siyasi ekspertlər beynəlxalq təşkilatlar tərəfindən verilən proqnozlara əsaslanaraq bu strateji sənəddə verilən vədlərin reallıqdan uzaq olduğunu bildirirlər. Məhz mütəxəssislərin dəqiq və rasional hesablamalarının sayəsində "Ermənistan 2050- Strateji inkişaf sənədi"ndə Ermənistanın maliyyə vəziyyəti ilə bağlı qeyri-real hədəflər müəyyən olunub.

Bu sənəddə ən mühüm bəndlərdən biri işsizliyin ortadan qaldırılması ilə bağlıdır. Şübhəsiz, Ermənistanın ağır iqtisadi şəraiti və maliyyə çatışmazlığı bu günədək işsizliyin həcminin yüksək qalmasına səbəb olub. Müstəqilliyin ilk illərində təkrəqəmli işsizlik səviyyəsi, sonrakı dövr ərzində artaraq 2018-ci ildə 17,71 faiz olub. Əslində bunlar rəsmi rəqəmlərdir. Ekspertlər isə qeyd edirlər ki, real işsizlik səviyyəsi bundan daha böyükdür. 2016-cı ildə ölkə parlamentində qeyri-rəsmi işsizlik səviyyəsinin 35 faiz olduğunu və 1 milyondan artıq vətəndaşın yoxsulluq səviyyəsindən aşağı şəraitdə yaşadığı bildirilmişdi. Hazırda Ermənistanda rəsmi statistikaya əsasən, əhalinin 4/1-i yoxsulluq səviyyəsindən aşağı vəziyyətdə yaşamaqdadır. Beynəlxalq təşkilatların məsələ ilə bağlı hesabatları da bunu açıq-aşkar sübut edir. Məsələn, Asiya İnkişaf Bankı öz hesabatında Ermənistandakı yoxsulluq səviyyəsini Əfqanıstan və bir sıra geridə qalmış ölkələrlə müqayisə edir.

Hazırda Ermənistanda pik nöqtəsində olan işsizlik, əməkhaqqının azlığı, ixtisas üzrə iş tapmaq və bizneslə məşğul olmağın mümkün olmaması ən ağır fəsadlara yol açaraq ölkədəki miqrasiya dalğasını gündən-günə genişləndirməkdədir.

İşğalçı ölkədə güclənən mühacirətin nəticəsində əhalinin sayı azalmaqda davam edir. Erməni ekspertlər qeyd edirlər ki, kütləvi köç tendensiyasının davam erməsi nəticəsində ölkənin bölgələri tamamilə boşalmaq təhlükəsi ilə üz-üzə qalıb.

Digər bir məsələ Ermənistanın dövlət borcu ilə bağlıdır. İqtisadçı ekspertlərin hesablamalıra görə bu ölkədə dövlət borcu hər ay milyonlarla dollar çoxalır. Onların sözlərinə görə, Ermənistan bir müddət sonra tamamilə müflisləşəcək. Ümumiyyətlə, ümumi dövlət borcunun artması, Ermənistanın maliyyə resurslarına ehtiyacı olması "Ermənistanın 2050- Strateji inkişaf sənədi"nin qeyri-real hesablamalara əsasən tərtib edildiyini göstərir. Beynəlxalq Valyuta Fondunun hesablamalarına əsasən, Ermənistanın ümumi dövlət borcunun həcminin artacağı proqnozlaşdırılır. Açıq-aşkar görünür ki, sosial-iqtisadi vəziyyəti acınacaqlı vəziyyətdə olan, beynəlxalq ictimaiyyətdən maliyyə dəstəyi uman bir dövlətin, 30 ildən sonra məvacibləri 7 dəfədən çox artıracağı ilə bağlı verdiyi vədlər real vəziyyətlə əlaqəsi olmayan hədəflərdir.

Əslində Ermənistanı təmin edən ən ciddi mənbə ölkə xaricində yaşayan ermənilərdir. Belə ki, erməni diasporu və ölkə xaricinə miqrasiya edən işçilərin ölkəyə yolladıqları maliyyə vəsaitləri, onların ailələrinə yoxsulluq səviyyəsi ilə nisbi mübarizə aparmağa kömək edir. Beynəlxalq təşkilatların, o cümlədən Dünya Bankının hesabatına əsasən, 2000-2018-ci illər ərzində Ermənistana göndərilən maliyyə vəsaitləri artan xətt üzrə inkişaf edib. Vəsaitin böyük bir hissəsinin (təxminən 70 %) Rusiyada miqrant olaraq yaşayan ermənilər tərəfindən göndərilir, 2014-cü ildən etibarən köçürmələrin azalması ilə müşayiət olunur. Xarici ianələr, diasporanın və miqrantların ölkəyə köçürdükləri maliyyə vəsaitləri üzərində qurulan primitiv iqtisadi modelə görə "Ermənistan 2050-Strateji inkişaf sənədi"ndə göstərilən hədəflərə çatmaq potensialına sahib deyil.

Bu gün öz xalqını yalançı vədlərlə aldadan N.Paşinyan, eləcə də erməni icitimaiyyəti bilməlidir ki, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməyənə qədər Ermənistanın heç bir inkişaf perspektivi olmayacaq. Bu da məlumdur ki, Azərbaycanın Ermənistanı bütün beynəlxalq və regional layihələrdən təcridetmə siyasəti əvvəlki iqtidarlarda olduğu kimi, Paşinyan hakimiyyətini də sərt reallıqlar qarşısında qoyur. Əslində Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndində "Qarabağ- Ermənistandır və vəssalam" açıqlaması və Ermənistanla Dağlıq Qarabağın birləşdirilməsini nəzərdə tutan "miatsum" deməsi də Ermənistan vətəndaşlarını yenidən hərbi ritorika ilə, "böyük Ermənistan" vədləri ilə aldatmaq niyyətindən irəli gəlir.

Bütün bunlar onu göstərir ki, N.Paşinyann reallığa uyğun olmayan, populizmə, kütlənin emosiyalarını oxşamağa hesablanan hərbi, siyasi və sosial-iqtisadi "proqramlar"ının heç bir əsası yoxdur. Bütün bu yalançı vədlər, saxta rəqəmlər əslində hər gün keçdikcə onun özünə və ölkəsinə qarşı çevrilir.

**Zahid Rza,**
***"İki sahil"***

# Əli Kərimli hansı üzlə xalqı yenidən meydanlara çağırır?



Məlum olduğu kimi, AXCP sədri Əli Kərimli yenidən öz tərəfdarlarını bu il sentyabrın 28-nə təyin etdiyi mitinqə çağırıb. Görünür bu uğursuz siyasətçi hesab edir ki, həmin yolla həm daxildə, həm də xaricdə sıfırdan da aşağı səviyyədə olan reytinqini bir qədər yüksəltməyə, nəticə etibarilə daha çox qrant əldə etməyə nail olacaq. Sözsüz ki, bütün bunlar boş və mənasız cəhdlərdir.

Ona görə ki, 30 ilə yaxındır ki, Azərbaycan xalqı kimin kim, nə olduğunu yaxşı bilir. Hər kəsə açıq-aydın məlumdur ki, AXCP sədri Əli Kərimli və ümumilikdə dağıdıcı müxalifət düşərgəsinin "başbilənləri" regionda marağı olan xarici qüvvələrin əlində alətə çevriliblər. AXCP sədri özü də başa düşür ki, onun heç bir sosial bazası olmayıb, bu gün də yoxdur və heç vaxt da olmayacaq. Bu gün xaricdə Azərbaycanda xaos və anarxiya yaratmaq arzusunda olan qüvvələr mövcuddur. Görünən budur ki, dünyada və regionda baş verən siyasi təbəddülatlar zəminində onlar son vaxtlar xeyli fəallaşıblar. Bununla da anti-Azərbaycan qüvvələr daxildəki milli satqınlara "stavka" edirlər.

**Siyasi ekspert Azər Həsrət** sözügedən məsələ ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, Əli Kərimli siyasətçi kimi tükənib: "Faktiki olaraq onun artıq imkanları zəifləyib. Xüsusən də xalq arasındakı etimadı o qədər zəifləyib ki, o da hansısa bir yolla üzdə qalmağa çalışır. Ona görə də bu və ya digər şəkildə təxribatçı açıqlamalar verir. Bununla da yalan məlumatlar üzərində təbliğat qurur. Eyni zamanda, ictimaiyyəti ayaqlandırmaq üçün kütləvi aksiyaların anonsunu verir. Bu adam indi də sentyabrın 28-də mitinq keçirmək sevdasına düşüb. Sadəcə olaraq bu cür mitinqlərin heç bir əsası, heç bir xeyri olmadığını özü də çox yaxşı bilir. Sözsüz ki, Əli Kərimlinin mitinq keçirmək istəyi heç də bizim kimiləri narahat etmir. Çünki ictimai dəstəkdən məhrum olan biri heç cür uğurlu kütləvi aksiyalar keçirə bilməz. AXCP sədrinin ötən illər ərzində keçirdiyi mitinqlərə diqqət yetirsək görərik ki, Azərbaycan ictimaiyyəti, xalqı da buna dəstək verməyib, əksinə sərt şəkildə qınaqlara tuş gəlib. Digər tərəfdən, müşahidələrdən də görürük ki, belə mitinqlərə ictimaiyyət arasında maraq ilbəil daha da kəskin şəkildə azalır. Təbii ki, bunların çox ciddi səbəbləri var. Çünki Azərbaycan xalqı onun kimliyini çox yaxşı bilir və bu baxımdan da Kərimlinin bu cür çağırışlarını qeyri-ciddi qəbul olunur. Hər kəs yaxşı bilir ki, Əli Kərimli oyunçu olub. Həmişə bu və ya digər şəkildə öz siyasi alverini edib. İndi bu mitinq də görünür ki, onun siyasi alverinin bir növüdür. Bununla da Kərimli həm sağda, həm də solda öz çirkin əməllərinə dəstək verənlər üçün bir görüntü yaratmaq istəyir. Bunun də səbəbi qrant əldə etməkdir. Sözsüz ki, onun mitinq keçirmək niyyəti əvvəlkilər kimi uğursuz olacaq. Çünki sabitlik, inkişaf edən bir ölkədə bu cür aksiyalar təşkil etmək fikrinə düşənlərə Azərbaycan xalqı heç bir zaman imkan verməyəcək".

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# ƏVVƏL SIZMA, SONRA YANĞIN



Argentinanın "YPF" nəhəng dövlət neft şirkəti "Vaca Muerta" neft-qaz yatağında yanğın baş verdiyini elan edib.

Bildirilib ki, yanğın sentyabr ayının 15-də baş verib və bir gün əvvəl həmin yataqda qaz sızması müşahidə olunub. "LLLO X-2" quyusundakı sızmanın və yanğının səbəbi hələ ki məlum deyil.

Şirkət zərərçəkənin olmadığını və hər birində 12 yanğınsöndürən olan 2 yanğınsöndürən briqadanın əraziyə göndərildiyini bildirib. "YPF" şirkətinin sözçüsünün verdiyi məlumatda yalnız yanğın baş verən yataqda hasilatın dayandırıldığını bildirib.

"İki sahil" "reuters.com" saytına istinadən xəbər verir ki, yanğın baş verən "LLLO X-2" quyusunun yerləşdiyi "Vaca Muerta" dünyanın II ən nəhəng qaz rezervinə və IV qeyri-ənənəvi neftə sahib yatağıdır.

# BƏDBƏXT HADİSƏ



İyul ayının ortasından etibarən İndoneziyanın Dövlət Neft və Qaz Şirkətinə məxsus 3 quyudan birində yaranan sızma axaraq Karavanq şəhərinin şimalında yerləşən Vest Java dənizinə tökülüb. Avqust ayının ortalarından etibarən şirkət 44 gəmini təmizləmə əməliyyatları aparmaq üçün əraziyə göndərib. Hadisəyə görə İndoneziyanın Vest Java əyalətindəki 7 çimərlik bağlanılıb. Ətrafdakı kəndlər isə baş verən çirklənmədən hələ də əziyyət çəkir. Sızma şəhərdən uzaqda yerləşən 7 adaya qədər gəlib çatıb. Turistlər çimərliklərdən köçürülüb, balıqçılar artıq çirklənmiş ərazini tərk ediblər. Sakinlər artıq sızmanın baş verdiyi evlərdən çıxıblar və əhali qoruyucu maskalar təmizlənmə və əlcəklərlə təmin olunub.

Şirkət sentyabrın sonuna qədər işlərini qaydasına salacağını bildirib.

# "iPhone 11" modellərinə tələbat gözləniləndən çoxdur




"Apple" yeni "iPhone" 11 modelləri üçün əvvəlcədən sifariş almağa davam edir. Yeni "iPhone"ların sifariş vermə rəqəmləri gözləniləndən qat-qat yüksəkdir.

Milli.Az chip.az-a istinadən bildirir ki, "Apple" ötən cümə günü yeni "iPhone"lar üçün əvvəlcədən sifariş almağa başladı. "Apple" analitiki Ming-Chi Kuo, cümə günü başlayan "iPhone 11", "iPhone 11 Pro" və "iPhone 11 Pro Max" üçün əvvəlcədən sifarişlərin gözləntilərdən çox olduğunu bildirən bir hesabat yayıb.

Ming-Chi Kuo, hesabatında "Apple"ın onlayn göndərmə təxminlərindən istifadə edib. Kuo, eyni zamanda "iPhone 11" və "iPhone 11 Pro"a xüsusilə də yeni rəng seçimlərinə tələbatın güclü olduğunu bildirib.

Kuo-nun hesabatına görə ABŞ-da "iPhone 11"dən daha bahalı olan "iPhone 11 Pro"ya daha çox tələbat var. Çin bazarında, "iPhone 11" ön sifarişləri, "iPhone 11 "Pro"-nu qabaqlayır. Kuo, sıfır faiz ödəmə planı və mübadilə proqramlarının yeni "iPhone" modellərinin satışını artırdığını söylədi.

"TF Securities", 65-70 milyon yeni "iPhone"-nin satılacağını təxmin edir. Ancaq əvvəlcədən sifariş rəqəmləri gözləniləndən daha yüksək olduqdan sonra "TF Securities" də satış proqnozlarını artırdı.

"Apple", "iPhone 11"-i 699 dollar qiymətinə satışa çıxardı. Ming-Chi Kuo-nun hesabatına görə, $ 699 qiyməti "iPhone 6" və "iPhone 7" istifadəçilərini telefonlarını "iPhone 11" ilə əvəz etməyə təşviq edir.

Rəsmi satışlar sentyabrın 20-də başlayacaq.

# Lempard "Çelsi"nin tarixinə keçdi



Çempionlar Liqasının birinci turu çərçivəsində "Çelsi" öz meydanında "Valensiya"ya 0:1 hesabı ilə uduzub.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, "Çelsi"nin baş məşqçisi Frenk Lempard bu məğlubiyyətlə klubun tarixinə keçib.

Belə ki, Lempard London təmsilçisinin tarixində debüt Çempionlar Liqası matçını uduzan ilk baş məşqçi olub.

Qeyd edək ki, 41 yaşlı məşqçi "Çelsi"nin sükanı arxasına bu yay "Derbi Kounti"dən keçib.

# Bred Pitt "Oskar"dan imtina etdi



Tanınmış Hollivud ulduzu Bred Pitt "Oskar 2020" mükafatları üçün ən ideal namizədlərdən hesab edilir.

Milli.Az axşam.az-a istinadən bildirir ki, "Once upon a time" və "Ad Astra" kimi məşhur filmlərdəki obrazları ona bu mükafatı qazandıra bilər. Lakin aktyor kampaniyaya qoşulmayacağını deyib.

"Mənim üçün "Oskar" və ya hər hansı bir mükafatı qazanmaq vacib deyil. Önəmli olan 10 il sonra da çəkildiyim filmin ilk günkü qədər maraqla izlənməsidir" , - o bildirib.

# Yeni boşluq 1 milyarddan çox smartfona müdaxiləyə imkan verir



Təhlükəsizlik üzrə mütəxəssislər tərəfindən SİM kartlarda aşkar edilmiş yeni boşluq 1 milyarddan çox smartfona müdaxilə etməyə imkan verir. "AdaptiveMobile Security" şirkətinin mütəxəssisləri bildiriblər ki, sözügedən boşluğun köməyi ilə istifadəçilərin olduğu yerə, zənglərə və mesajlara müdaxilə mümkündür.

Milli.Az ictnews.az-a istinadən bildirir ki, mütəxəssislərin fikrincə, bir neçə dövlətlə əməkdaşlıq edən və son 2 ildə istifadəçiləri izləyən "konkret özəl şirkət" sözügedən boşluqdan istifadə edib.

Aşkar edilmiş boşluq konkret qurğu ilə deyil, SİM karta inteqrasiya edilmiş texnologiya ilə bağlı olduğuna görə SİM kartdan istifadə edən hər bir smartfon (brend və ya modeldən asılı olmayaraq) təhlükə altındadır.

## Rusiya peyki Çinin kosmik stansiyaları üçün aya enmə yerlərini seçəcək



Rus orbital aparatı "Luna-26" Çin stansiyalarının ay səthində gələcək eniş yerlərini seçəcək.

Milli.Az Trend-ə istinadən xəbər verir ki, əldə edilən razılaşmalar çərçivəsində Çin nümayəndəlikləri üçün mümkün eniş sahələrinin Rusiya orbital aparatı tərəfindən ətraflı araşdırılması mümkün olacaq.

Bundan əlavə, əldə olunan razılaşmalar çərçivəsində Rusiya və Çin bir-birinin ay aparatlarına - ("Luna-26" və "Chang'e-7") elmi avadanlıqların quraşdırılması imkanlarını nəzərdən keçirəcəklər.

## 16 yaşında "Barselona"nın tarixinə düşdü



"Barselona"nın gənc futbolçusu Anssumane Fati klubun tarixinə düşüb. Milli.Az qol.az-a istinadən xəbər verir ki, 16 yaşlı yarımmüdafiəçi Çempionlar Liqasının qrup mərhələsində hazırda Dortmund "Borussiya"sı ilə keçirilən oyunun start heyətində meydana çıxıb. Bununla da o, Kataloniya klubunun bu turnirdə meydana çıxan ən gənc futbolçusu olub.

Bundan əvvəlki rekord Boyan Krkiçə məxsus idi. O, 17 yaşında "Barsa" ilə ÇL-də debüt etmişdi.

Qeyd edək ki, Fati bu mövsüm La Liqada 3 oyuna 2 qol vurub, 1 qol ötürməsi edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Mexanika və energetika şöbəsinin rəisi Cahid Hüseynova, atası

**Əlsəf Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Mexanika və energetika şöbəsinin rəisi Cahid Hüseynova, atası

**Əlsəf Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azəriqaz" İB-nin Gəncə Regional Qaz İstismarı İdarəsinin rəisi Fariz Məmmədova, atası

**Rza Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin rəisi Fuad Süleymanov, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin Qaynaq işlərinin sertifikatlaşdırılması şöbəsinin böyük mühəndisi Hafiz Qarayevə, atası

**Məhəmmədhüseyn Qarayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Baş ofisinin İnsan Resursları Departamentinin kollektivi SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Qaynaq işlərinin sertifikatlaşdırılması şöbəsinin böyük mühəndisi

**İbrahim Həsənovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini: İsmayıl Hacıyev
Baş redaktorun müavini: Rəşad Bağırov

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Çapa imzalanıb: 19.09.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8182
İndeks: 0151, Sifariş: 3113

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.